

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 15 (24.397)

*20 aprel 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


## Prezident həftəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub və çıxış edib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Qeyd edək ki, 1958-ci ildə istifadəyə verilən və ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı başlanğıcını Mingəçevir su anbarından götürür. Yuxarı Şirvan kanalı Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.

Söhbət zamanı bu təşkilatın Asiya qitəsində sülhün, təhlükəsizliyin gücləndirilməsinə və etimad quruculuğu prosesinə töhfə verməsi baxımından böyük potensiala malik olduğu qeyd edildi, Azərbaycanın üzv dövlətlərlə birgə çalışaraq Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin daha da təsisatlanması və sahəvi əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini vermək əzmində olduğu vurğulandı.

Görüşdə COP29 çərçivəsində də bu təşkilatın müxtəlif tədbirlərinin keçirilməsi, eyni zamanda yaşıl nəqliyyat konsepsiyası və digər sahəvi əməkdaşlıq məsələlərinə baxılması ilə bağlı müzakirələr aparıldı.

## V.Z.Abbasovun “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında iqtisadi sahədə səmərəli fəaliyyətinə görə Abbasov Vüqar Zakir oğlu **“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”** nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 9 aprel 2024-cü il*

## F.T.Məmmədovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadi məsələlər şöbəsinin Büdcə nəzarəti sektorunun müdiri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Firudin Teymur oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadi məsələlər şöbəsinin Büdcə nəzarəti sektorunun müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 15 aprel 2024-cü il*

## R.E.İbrahimovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəmzi Elşən oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 15 aprel 2024-cü il*



## Azərbaycan daha bir “mümkünsüzü” mümkün etdi

### Həm də vaxtından əvvəl...

***Bu cür narahatlıqlar 44 günlük Vətən müharibəsindən sonra cəmiyyətdə hər zaman olub: Rusiya sülhməramlıları bölgəyə yerləşibsə, buradan çıxmaları çox çətin olacaq və yaxud şimal qonşumuz Cənubi Qafqazdakı bu təsir rıçaqını zamanı gəldikcə daha da uzadacaq və sair. Doğrudur, nikbin düşünənlər də az deyildi, ən azından ortada Qəbələ RLS nümunəsi var idi. Amma bütün bu narazılıqları təbii qəbul edənləri də qınamaq olmazdı. Çünki həm II Qarabağ savaşı sırasında, həm də ondan sonra bölgədə gedən proseslərdə ölkəmizə, ordumuza qarşı oynanılan çirkin oyunların çox şahidi olmuşuq. Amma bir də ortada reallıq var axı – nəyi, nə zaman edəcəyini bilən Lider reallığı.***

Sülhməramlıların Azərbaycandan çıxarılmasından iki gün əvvəl Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini, qatı ermənipərəst deputat Konstantin Zatulin bildirmişdi ki, bu gün Qarabağda sülhməramlıların olması Rusiya ilə Azərbaycan arasındakı münasibətlərə bağlıdır. Əslində, Qarabağda erməni əhalisi olmadığından sual yaranır: bizim sülhməramlılarımızın orada nə işi var? Azərbaycan rəhbərliyi sülhməramlıların geri çəkilməsi ilə bağlı məsələni ona görə qaldırmayıb ki, bu, Rusiyada məğlubiyyət, güzəşt, hərbçilərimizin Rusiyadan kənarda ölkəyə vurduğu ziyan kimi qəbul olunmasın. Amma, əslində, sülhməramlılarımızın Qarabağda olmasının səbəbləri daha da azalıb.

Aprelin 17-də mediada Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılmasının videogörüntüləri yayıldıqdan qısa müddət sonra Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin mövzu ilə bağlı AZƏRTAC-ın sualını cavablandırması məsələyə rəsmi şəkildə aydınlıq gətirdi: “2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilmişdir. Artıq proses başlanılıb, Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər”.

Həmin gün Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov prosesin başlandığını təsdiq etsə də, Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru, politoloq Sergey Markov operativ və daha məzmunlu şəkildə məsələyə münasibətini bildirdi. Azərbaycandakı prosesləri hər zaman obyektiv qiymətləndirməyə çalışan politoloq belə bir açıqlama verdi: “RSK-nın Qarabağdan çıxarılması tamamilə Rusiya ilə Azərbaycan arasındakı razılaşmalara uyğun olaraq həyata keçirilir. Rusiya sülhməramlıları öz öhdəliklərini tam yerinə yetirdilər. Bu öhdəlik, ilk növbədə, Soçi razılaşmalarından sonra tərəflər arasındakı münaqişənin yoluna qoyulmasından ibarət idi. Azərbaycan hakimiyyəti tərəfindən Qarabağda antiterror tədbirləri həyata keçirildikdən sonra vəziyyət tamamilə dəyişdi, nəticədə, erməni qoşunları təslim oldu və bölgədən çıxarıldı. Buna görə də tərəflər arasında münaqişənin həll edilməsi zərurəti aradan qalxdı”.

Markov bunu da xatırlatdı ki, Ermənistan tərəfi dinc erməni əhalisinin Qarabağdan təxliyəsini təşkil edib: “Bir müddət RSK Qarabağ ərazisində qalmalı oldu, lakin kontingentin orada heç bir işi yox idi. Azərbaycan hakimiyyəti erməni millətindən olan mülki əhalinin bir hissəsinin Qarabağa qayıdacağına ümid etdiyinə görə sülhməramlılar orada qalmaqda davam etdi. Lakin Ermənistan hakimiyyəti bununla bağlı çoxsaylı maneələr yaratdı, dinc erməni əhalisini qorxutmağa, sərt anti-Azərbaycan kampaniyası aparmağa başladı. Nəticədə isə belə məlum oldu ki, kütləvi qayıdış olmayacaq. Bu şərtlərə əsasən Rusiya sülhməramlıları bölgəni tərk etmək qərarına gəldilər”.

Bəli, həqiqətən də, verilən açıqlamalardan da göründüyü kimi, 2023-cü ilin 20 sentyabrında Qarabağda separatizmin ləğvi və ermənilərin Ermənistana qayıtmasından sonra sülhməramlıların missiyası Azərbaycanda faktiki olaraq bitmişdi. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 4-cü maddəsinə əsasən sülhməramlıların ölkədə qalma müddətinə hələ bir ildən də artıq vaxt var idi. Amma rəsmi Bakı Rusiya ilə münasibətlərə görə bu məsələdə qabaqdangəlmişlik etmədi, əksinə, prosesin mövcud razılaşmaların ruhuna uyğun olaraq irəliləməsinə imkan verdi. Eyni zamanda Azərbaycan bu prosesdə elə incə gedişlər etdi ki, sülhməramlıların burada görə biləcəyi heç bir iş qalmasın. Təsadüfi deyildi ki, hələ yaxın günlərədək sülhməramlıların mina axtarışlarına cəlb olunması, Qarabağdakı tikinti-quruculuq işlərində iştirakı ilə bağlı bəzi mövzular ortaya atılmışdı. Amma bütün bunların hamısı səmərəsiz yollar idi. Çünki mina axtarışlarında iştirak xüsusi təlimlər görmüş heyətlər tərəfindən aparılır, sülhməramlıların isə nə belə təcrübəsi, nə də missiyası var idi. Quruculuq işlərində isə mülki özəl şirkətin təmsilçiləri daha çox rol alırlar. Və bu işdə Rusiya şirkətləri də təmsil oluna bilər, hansı ki ölkəmizdə digər sahələrdə bu cür çalışan xeyli sayda Rusiyanın özəl qurumları var.

Beləliklə, artıq Rusiya da anlayırdı ki, sülhməramlıların Qarabağda işi bitib. Ukrayna ilə müharibə fonunda həm şəxsi heyət və texnikalara ehtiyac var, həm də kütləvi sanksiyaların tətbiq edildiyi, iqtisadi şərtlərin uyğun olmadığı bir dövrdə kənarda hərbi birləşmələr saxlamaq büdcə üçün əlavə yükdür. Digər tərəfdən, Moskvada da başa düşməmiş deyildilər ki, Azərbaycan ərazisində müvəqqəti də olsa, Rusiya qoşunlarının yerləşdirilməsi xalqın narazılığı ilə müşahidə olunur, amma müqavilənin vaxtı bitmədiyindən bu narazılıq pik həddində deyil. Moskva isə son dövrlərdə Cənubi Qafqazla bağlı gedən çirkli oyunlarda, xüsusilə Ermənistanın açıq şəkildə onun orientasiyasından çıxması fonunda Bakı ilə münasibətləri pisləşdirmək istəməzdi. Bununla da Azərbaycan 2020-ci ildə Rusiya sülhməramlılarını Azərbaycan ərazisinə yerləşdirməklə Qərbin bölgəyə müdaxiləsinin qarşısını aldı. Türkiyəni bölgəyə gətirməklə (Ağdamdakı monitorinq mərkəzi) isə Rusiyanın hərbi gücü qarşısında əlini gücləndirdi və hərbi-siyasi tarazlığı qorudu. Bir sözlə, düzgün hesablanmış siyasi kurs, tarixi vəziyyətin düzgün qiymətləndirilməsi və tərəfdaşlarla münasibətlərin qarşılıqlı hörmət əsasında qurulması bu prosesin də uğurla başa çatdırılmasını təmin etdi.

**Səbuhi HƏSƏNOV**


Bakıda “Naxçıvan fotolarda” adlı fotosərgi keçirilib 2
Naxçıvanda akademik Rəhim Rəhimovun 100 illik yubileyi qeyd edilib 3
Bu dəfə Şuşa “İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı” kimi dünyada tanınacaq 6
Gələcəyin mübariz asayiş keşikçiləri 8
Dağlar qoynundan boylanan tarix 10
Söykənmişik qocaman bir çinara 11



# Bakıda "Naxçıvan fotolarda" adlı fotosərgi keçirilib

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi və "Şərq qapısı" qəzetinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə Bakı şəhərindəki Beynəlxalq Muğam Mərkəzində "Naxçıvan fotolarda" adlı fotosərgi keçirilib. Sərgidə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli, ölkənin ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il dekabrın 30-da "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncama əsasən əlamətdar tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Səlahiyyətli nümayəndə vurğulayıb ki, yubiley tədbirləri Naxçıvan şəhəri ilə yanaşı, başqa şəhərlərdə, ölkələrdə də geniş şəkildə qeyd olunur. "Naxçıvan fotolarda" sərgisi mart ayında Türkiyə Cümhuriyyətinin İğdır şəhərində də baş tutub. Aprel ayının əvvəllərində isə Türkiyənin Kayseri şəhərində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin kollektivinin iştirakı ilə muxtar respublikanın 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. İl ərzində də muxtar respublikanın yubileyi ilə bağlı bu kimi tədbirlərin keçirilməsi davam etdiriləcək.







Bu gün Naxçıvanın artıq öz inkişafının yeni mərhələsinə qədəm qoyduğunu qeyd edən Fuad Nəcəfli bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı bu mərhələnin əsas hərəkətverici qüvvəsidir. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Naxçıvanı yaxın gələcəkdə tamamilə yenilənmiş, iqtisadi cəhətdən kifayət qədər inkişaf edən, cəlbedici bir regiona çevirəcək. Dövlət Proqramı Naxçıvanın bütün istiqamətlərdə kompleks inkişafını nəzərdə tutur.







Bugünkü fotosərgi, həmçinin Naxçıvanın turizm potensialının üzə çıxarılması, daha geniş arenada tanıdılması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Səlahiyyətli nümayəndə bu qiyabi tanışlığın hər kəsdə xoş əhvali-ruhiyyə yaradacağına inamını ifadə edib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Milli Məclisin deputatı İsa Həbibbəyli çıxışında dövlət başçısının Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü ildönümü ilə bağlı tarixi Sərəncamını Naxçıvan Muxtar Respublikasına dövlət səviyyəsində göstərilən diqqətin, qayğının təzahürü kimi qiymətləndirib. Naxçıvanın taleyində Ulu Öndərin müstəsna roluna diqqətçəkən akademik qeyd edib ki, bu gün Naxçıvan öz 100 illiyini yeni inkişaf mərhələsi ilə qarşılayır. Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub. Bu baxımdan sözügedən Sərəncam Naxçıvanın muxtariyyət tarixinin və inkişaf yolunun müstəqillik ideyaları əsasında Azərbaycançılıq mövqeyindən yenidən öyrənilməsinə mühüm stimul verir.

"Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova çıxış edərək bildirib ki, "Şərq qapısı" qəzetinin "Naxçıvan fotolarda" sərgisi muxtar respublikanın 100 illik yubileyinə töhfədir. Sərgidə təqdim olunan fotolar "Şərq qapısı" qəzetinin fotoqrafları tərəfindən çəkilib.

62 fotonun nümayiş olunduğu sərgi böyük maraqla qarşılanıb.









Tədbirin bədii hissəsinə başlamazdan öncə Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların əziz xatirəsi anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Beynəlxalq Muğam Mərkəzinin solistləri xanəndə Arzu Əliyeva və Sərxan Bünyadzadənin ifasında konsert proqramı təqdim olunub.

Sərginin başqa xarici ölkələrdə də keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 30 dekabr tarixli Sərəncamına uyğun olaraq bu il Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi qeyd edilir.

**"Şərq qapısı"**



# Səlahiyyətli nümayəndə Milli Konservatoriyanın rektoru, Xalq artisti, professor Siyavuş Kərimi ilə görüşüb



Aprelin 5-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor Siyavuş Kərimi ilə görüşüb.

Naxçıvan Dövlət Universitetinin çox ciddi platforma olduğunu deyən səlahiyyətli nümayəndə Fuad Nəcəfli bu potensialdan geniş istifadə olunması üçün mühüm addımlar atıldığını diqqətə çatdırıb. Fuad Nəcəfli qeyd edib ki, 11 prioritet istiqamət üzrə icrası davam etdirilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda Naxçıvan Dövlət Universitetinin fəaliyyət imkanlarının genişləndirilməsi də əsas hədəflərdən biri kimi qarşıya qoyulub. Ali təhsil ocağı üçün yeni tədris korpusu tikiləcək, ingilis dilində tibb ixtisası üzrə tədris imkanları yaradılacaq.

Xalq artisti Siyavuş Kərimi Naxçıvanın mədəni həyatında baş verən inkişaf proseslərini yüksək dəyərləndirərək bu prosesdə fəal iştirak etmək istədiklərini diqqətə çatdırıb. Bildirib ki, bu məqsədlə Naxçıvan Dövlət Universiteti ilə ilkin müqavilə imzalanıb. Razılaşmaya əsasən Milli Konservatoriyanın məzunları Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətlə təmin olunacaqlar. Eyni zamanda qarşılıqlı tələbə və müəllim mübadiləsi aparılacaq.

Naxçıvan Dövlət Universiteti ilə birgə Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı böyük bir layihə üzərində işlədiklərini bildirən Siyavuş Kərimi vurğulayıb ki, budəfəki səfər çərçivəsində Əməkdar artist, məşhur cazmen Emil Əfrasiyabla birlikdə ali təhsil ocağının yaradıcı kollektivləri ilə görüşlər keçirilib, ustad dərsləri təşkil olunub, mövcud potensial yüksək qiymətləndirilib.

Görüşdə iştirak edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Milli Konservatoriya ilə birgə əməkdaşlıq çərçivəsində görüləcək işlərin Naxçıvanda mədəni mühitin daha da inkişafına və bu potensialdan səmərəli istifadəyə mühüm töhfə verəcəyini bildirib.

**“Şərq qapısı”**

# Naxçıvanda akademik Rəhim Rəhimovun 100 illik yubileyi qeyd edilib



Aprelin 18-də Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Onkologiya Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, “Şöhrət” ordenli Rəhim Rəhimovun anadan olmasının 100 illiyinə həsr olunmuş “Nəsillərə nümunə” yubiley konfransı keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və konfrans iştirakçıları əvvəlcə akademik Rəhim Rəhimovun universitetin Konservatoriya binasının qarşısında qoyulmuş büstü önündə xatirə fotosu çəkdiriblər.






Qonaqlar İncəsənət fakültəsinin tələbə və müəllimlərinin yaradıcılığından ibarət rəsm əsərləri ilə tanış olublar.

Sonra Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Rəhim Rəhimovun mənalı ömür yolunu, zəngin elmi və tibb fəaliyyətini əks etdirən sərgiyə baxış olub. Sərgidə nümayiş etdirilən elmi əsərlər Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin kitabxanasına təqdim olunub.

Konservatoriya binasının akt zalında öz işinə başlayan “Nəsillərə nümunə” yubiley konfransında əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransın işinə uğurlar arzulayaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi dövlət səviyyəsində geniş qeyd olunur. Təbii ki, yubiley ilində Naxçıvanın yetirdiyi görkəmli dövlət xadimlərinin, alim, ziyalı və ədiblərin, sənət adamlarının da ömür yoluna, xalqımız və dövlətimiz qarşısındakı xidmətlərinə nəzər salınır. Bu mənada, akademik Rəhim Rəhimovun anadan olmasının 100 illiyinin Naxçıvanda qeyd olunması əhəmiyyətlidir.

Fuad Nəcəfli vurğulayıb ki, öz davamçılarını yetişdirmək və gənc kadrların hazırlanması işinə töhfə vermək həqiqi elm adamlarına xas xüsusiyyətdir. Rəhim Rəhimov şəxsiyyətinin də ən üstün cəhətlərindən biri Azərbaycanda yüksəkixtisaslı tibbi kadrların və gənc alimlərin hazırlanması sahəsində gördüyü işlərdir. Onun elmi rəhbərliyi ilə 2 elmlər doktoru və 12 fəlsəfə doktoru dissertasiyası müdafiə edilib. Alim onkologiya və rentgenologiyanın problemlərinə həsr edilmiş 200-dən artıq elmi tədqiqatın, eləcə də monoqrafiyaların və patentlərin müəllifidir. Onlardan bir qismi nüfuzlu xarici jurnallarda nəşr olunub. Bu gün də ölkəmizdə onkoloqlar və rentgenoloqlar akademik Rəhim Rəhimovun tədqiqatlarından mötəbər mənbə kimi istifadə edirlər. Akademikin beynəlxalq konfrans və simpoziumlardakı çıxış və məruzələri Azərbaycan tibb elmini layiqincə təmsil edən dəyərli elmi istiqamətlərdir.

Qeyd olunub ki, tanınmış alim, istedadlı həkim və bacarıqlı elm təşkilatçısı Rəhim Rəhimovun





Azərbaycanda tibb elminin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, alim “Şöhrət” ordeni ilə təltif edilib. Səlahiyyətli nümayəndə Naxçıvan Dövlət Universitetində akademikin 100 illiyinə həsr olunmuş konfransın keçirilməsini, ömür yoluna və çoxşaxəli elmi fəaliyyətinə nəzər salınmasını, alimin doğulduğu Ordubad şəhərində adına verilmiş küçədə “Elm parkı”nın salınmasını bu sahədə görülən işlərin davamı kimi dəyərləndirib, akademik Rəhim Rəhimovun xatirəsini dərin ehtiramla yad edib, konfransı yüksək qiymətləndirib, təşkilatçılara və iştirakçılara təşəkkürünü bildirib.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev vurğulayıb ki, Azərbaycan tibb elminə mühüm töhfələr vermiş böyük elm adamının nümunəvi həyat yoluna həsr olunmuş konfransın təşkili universitet həyatında əlamətdar hadisədir. Rentgenologiya sahəsində apardığı ixtira və kəşflərlə Azərbaycan tibb elminin inkişafında müstəsna yer tutan Rəhim Rəhimov nümunəvi məktəb formalaşdırıb. Bu gün onun ailə üzvləri və tibb sahəsində təhsil alan minlərlə gənc bu məktəbin davamçılarıdır. Rektor bildirib ki, 1999-cu ildə Ümummilli Lider Heydər Əliyevin dəstəyi ilə yaradılan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi bu il yaradılmasının 25 illiyini böyük uğurlarla qeyd edir. Bu günədək minlərlə ixtisaslı kadr yetişdirən fakültənin məzunları nəinki ölkəmizdə, dünyanın bir çox ölkələrində peşəkar həkim kimi fəaliyyətini davam etdirir. Bu gün Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində 2 minə yaxın gənc təhsilini davam etdirir ki, onların mindən çoxu əcnəbi tələbələrdir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası isə fakültənin tədris və təcrübə imkanlarını daha da artıracaqdır. Belə ki, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün ayrıca yeni tədris kampusu qurulur. Ərazidə 500 yerlik yeni araşdırma xəstəxanasının layihələndirilməsi aparılır. Həmçinin bu ildən ingilis dilində tibb ixtisasının tədrisinə başlanılıb. Bu gün keçirilən konfransda səsləndirilən fikirlər bu yeni imkanlardan yararlanacaq Tibb fakültəsi tələbələri üçün ayrıca stimul olacaq.

Elbrus İsayev universitetin kollektivi və tədbir iştirakçıları adından konfransın təşkilinə göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib, universitetin İncəsənət fakültəsinin müəllimi, Əməkdar rəssam Cavid İsmayılovun akademik Rəhim Rəhimova həsr etdiyi portreti görkəmli alimin oğlu, tibb elmləri doktoru, professor Çingiz Rəhimova təqdim edib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, 60 ilə yaxın Azərbaycan tibb elminə şərəflə xidmət etmiş alim həm də böyük elm və səhiyyə təşkilatçısıdır. Respublikamızda onkologiyanın inkişafında misilsiz xidmətləri olan alim bu sahədə ilk peşəkar mütəxəssislərin hazırlanması və onkoloji sahənin maddi-texniki bazasının formalaşması istiqamətində əvəzsiz işlər görüb. Naxçıvanda, xüsusən də Naxçıvan Dövlət Universitetində belə bir konfransın keçirilməsi görkəmli elm xadimi, akademik Rəhim Rəhimovun nümunəsində yeni nəsil həkimlər, alimlər, elm adamlarının yetişdirilməsinə açılan bir pəncərədir.

Görkəmli şəxsiyyətlə bağlı xatirələrini dilə gətirən İsa Həbibbəyli gənclərə Rəhim Rəhimov ömrü kimi nümunəvi həyat yolu arzulayıb.

Konfransda AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova “Akademik Rəhim Rəhimovun elmi-nəzəri və elmi-təşkilati fəaliyyəti” və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva “Naxçıvan məktəbinin yetişdirdiyi tibb xadimləri və davamçıları” mövzularında məruzə ediblər.

Sonra Milli Onkologiya Mərkəzinin baş həkimi, tibb üzrə fəlsəfə doktoru Azad Kərimli, Azərbaycan Tibb Universitetinin kafedra müdiri, AMEA-nın müxbir üzvü Sudeyf İmamverdiyev və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi, akademik Asəf Hacıyevin çıxışları dinlənilib, akademik Rəhim Rəhimovun zəngin həyat yolundan bəhs edən film nümayiş etdirilib.

Konfransda Naxçıvan Dövlət Universitetinin qabaqcıl tələbələrindən Əli Ələkbərliyə “Rəhim Rəhimov adına təqaüd” təqdim olunub.

Akademik Rəhim Rəhimovun oğlu, Azərbaycan Tibb Universitetinin kafedra müdiri, tibb elmləri doktoru, professor Çingiz Rəhimov ailə üzvləri adından konfransın təşkilinə görə minnətdarlıq edib.

“Tusi” Xeyriyyə Cəmiyyətinin təsis etdiyi “Akademik Rəhim Rəhimov adına Diplom” Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevə təqdim olunub.

Sonda xatirə fotosu çəkdirilib.

**“Şərq qapısı”**

## “Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“Dəstək” Fondu) yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 14 dekabr tarixli 47-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“Dəstək” Fondu) yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 14 dekabr tarixli 47-VI FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 2-ci hissədə “Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin” sözləri “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının” sözləri ilə əvəz edilsin;

1.2. 1-ci hissədə “yaralananların və şəhid ailələrinin” sözləri “yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının” sözləri ilə əvəz edilsin;

1.3. 3.1.2-ci yarımbəndin sonunda “nöqtə” işarəsi “nöqtəli vergül” işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.3-cü yarımbənd əlavə edilsin:

“3.1.3. müharibə veteranlarına.”;

1.4. 3.3-cü bənddə “sərəncamçısı” sözündən sonra “Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi qismində” sözləri əlavə edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (“Dəstək” Fondunun) vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası” üzrə:

2.1. adında və 1.2-ci bənddə “Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin” sözləri “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının” sözləri ilə əvəz edilsin;

2.2. 1.1-ci bənddə “yaralananların və şəhid ailələrinin” sözləri “yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının” sözləri ilə əvəz edilsin;

2.3. 1.3-cü bənddə “sərəncamçısı” sözündən sonra “Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi qismində” sözləri əlavə edilsin;

2.4. 2.5.1-ci yarımbənddə “digər borc” sözlərindən sonra “(mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan şəxs kimi təsdiq edildikdə ipoteka krediti)” sözləri əlavə edilsin;

2.5. 2.5.4-cü yarımbənd aşağıdakı yeni redaksiyada verilsin:

“2.5.4. şəhid ailəsi üzvünün, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilən şəxsin və müharibə veteranının məişət şəraitinin yaxşılaşdırılması (müharibə veteranları üçün ildə bir dəfə, 1000 (bir min) manatdan çox olmamaqla);”;

2.6. 3.2-ci bənddə “elektron qaydada Fondun rəsmi internet səhifəsi” sözləri “Nazirliyin rəsmi elektron ünvanı” sözləri ilə əvəz edilsin;

2.7. 4.3-cü bəndin ikinci cümləsində “Fondun” sözü “Nazirliyin” sözü ilə əvəz edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 19 aprel 2024-cü il*

## Ali Məclisdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi ilə görüş keçirilib



Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi, akademik Asəf Hacıyev ilə görüşüb.

Görüşdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi Asəf Hacıyev təşkilat (QDİƏTPA) haqqında ətraflı məlumat verib, müxtəlif sahələr üzrə qarşılıqlı maraqlar əsasında əməkdaşlığın inkişaf etdirilməsinə önəm verildiyini vurğulayıb. Baş katib Qara Dəniz regionunda uzunmüddətli və sıx əməkdaşlığın təşviq edilməsi, eləcə də bir sıra müvafiq istiqamətlər üzrə iqtisadi aktivliyin artırılmasının təşkilatın prioritetlərindən olduğunu diqqətə çatdırıb.

Ali Məclisin sədr müavini Anar İbrahimov bu il muxtariyyətin 100 illiyinin qeyd edildiyini, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoyduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraqdoğuran məsələlər müzakirə olunub.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş rəsm sərgisi açılıb

Aprelin 18-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş rəsm sərgisi açılıb. Sərginin açılış tədbirində rəsmi şəxslər, Naxçıvanda fəaliyyət göstərən rəssamlar və tələbə-gənclər iştirak ediblər.



Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva bildirib ki, sərgidə 2012-ci ildən Naxçıvanı dünyada tanıtmaq məqsədilə keçirilən “Naxçıvan – bəşəriyyətin beşiyi” VI Beynəlxalq Rəsm festivallarında iştirak etmiş xarici və yerli rəssamların əsərləri nümayiş etdirilir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvanın muxtariyyəti xalqımızın və dövlətimizin tarixi nailiyyətidir. Naxçıvanın muxtariyyəti digər sahələrlə yanaşı, bölgənin mədəni inkişafına da töhfələr verib. İstər Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində biz bu töhfələrin şahidi olmuşuq. Bugünkü tədbirin muxtariyyətin 100 illiyinə həsr olunması da Naxçıvan mədəniyyətinə və incəsənətinə mühüm töhfədir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən “Naxçıvan – bəşəriyyətin beşiyi” VI Beynəlxalq Rəsm festivallarının keçirilməsi də bu sahədə ilklərdən olub, diyarımızın qədim tarix və mədəniyyətinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edib.

Ali Məclisin sədr müavini qeyd edib ki, incəsənət hər bir dövr üçün vacib sahədir. Texnologiyanın sıçrayışı dövründə belə incəsənət bizim həyata baxışımızı formalaşdıran sənət növüdür. Həm indiki dövrün hadisələrini gələcəyə çatdırmaq, həm də gələcək nəsillərin estetik zövqünü formalaşdırmaq baxımından faydalıdır. Doğma diyarımızın qədim tarixinin, zəngin mədəniyyətinin belə əsərlər vasitəsilə nümayiş etdirilməsi muxtariyyət tariximizə mühüm töhfə və gələcək nəsillərə dəyərli ərməğandır.

Anar İbrahimov Naxçıvanda fəaliyyət göstərən rəssamlara bu yolda uğurlar arzulayıb, sərginin təşkilinə görə təşəkkür edib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya Türkiyə və Azərbaycan arasındakı sarsılmaz dostluq və qardaşlıq münasibətlərindən, mədəni əlaqələrimizin davamlılığından danışıb, Naxçıvan Muxtar Respublikasının 100 illiyinin Türkiyədə müxtəlif tədbirlərlə və rəsm sərgiləri ilə qeyd olunmasını yüksək qiymətləndirib.

Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş şüşə üzərində döymə əsərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimova hədiyyə edib.

Baxış zamanı məlumat verilib ki, sərgidə “Naxçıvan – bəşəriyyətin beşiyi” VI Beynəlxalq Rəsm festivallarında müxtəlif illərdə iştirak etmiş 52 rəssamın 54 əsəri nümayiş olunur. Əsərlərdə Naxçıvan təbiəti, abidələri, milli-mənəvi dəyərlərimiz rənglərin dili ilə dolğun şəkildə ifadə olunub.

Sərgi aprelin 20-dək davam edib.

## Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində müşavirə keçirilib

Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası, cari ilin birinci rübündə görülmüş işlər və qarşıda duran vəzifələrə dair müşavirə keçirilib.



Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov mərkəzi icra hakimiyyəti orqanlarının 2024-cü ilin I rübü ərzində həyata keçirdiyi işlərdən danışmış, qurumlar tərəfindən görülən işlər və mühüm əhəmiyyətli digər məsələlər ətraflı müzakirə edilmişdir. Həmçinin qarşıda duran vəzifələrin icrasının təmin edilməsi üçün müvafiq tədbirlərin təşkil edilməsinin zəruriliyini aidiyyəti qurumların rəhbərlərinə çatdırmışdır.

Baş nazir Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” barədə məlumat verərək bildirmişdir ki, Proqramın məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmaqla Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Muxtar respublikanın müasir yol xəritəsi sayılan bu sənəd, ümumilikdə, iqtisadiyyatın inkişafı, o cümlədən əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin, sosial sektorun, insan kapitalının və infrastruktur təminatının inkişafı, elektrik enerjisi istehsalının artırılması, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi kimi 11 istiqamət üzrə fəaliyyətlərin dəstəklənməsini nəzərdə tutan prioritetlərindən ibarətdir.

Müşavirədə mərkəzi icra hakimiyyəti və dövlət orqanlarının rəhbərlərinə səlahiyyətlərinə aid olan işlərə daha məsuliyyətli yanaşılması ilə bağlı bir sıra tapşırıqlar verilmişdir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı”nda 2023-cü ildə ayrılmış vəsait çərçivəsində həyata keçirilməli olan layihələrin qısa müddət ərzində yekunlaşdırılmasını və müqavilə üzrə öhdəliklərin vaxtında həyata keçirilməsinin vacibliyi vurğulanmışdır. Tapşırıq verilmişdir ki, aidiyyəti dövlət orqanları Təfsilatlı Tədbirlər Planı üzrə 2024-cü ildə ayrılacaq vəsait çərçivəsində həyata keçirilməsi nəzərdə tutulmuş tikinti layihələrinin, həmçinin infrastruktur və sosial layihələrin həyata keçirilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırma və layihələndirmə sənədlərinin hazırlanmasını, tender müsabiqələrinin keçirilməsinin sürətləndirilməsini təmin etsinlər. Müvafiq qurumlara mütəmadi olaraq görülmüş işlərin nəticəsi barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat və hesabat təqdim etmələri tapşırılmışdır.

Sonra mövzu ətrafında müzakirələr aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Nazirlər Kabinetinin***
***mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

"Naxçıvan Beynəlxalq Hava Limanının "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyinə verilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli Qərarının icrasının təmin edilməsi barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən müvafiq tarixdə Sərəncam imzalanıb. Adıçəkilən Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının Qərara uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Nazirlər Kabinetinə təqdim etmələri müəyyən edilmişdir.

Nazirlər Kabinetinin 2024-cü il 1 aprel tarixli Sərəncamına əsasən 1 yanvar 2024-cü il vəziyyətinə Naxçıvan Muxtar Respublikasının inzibati ərazi hüdudunda ümumi torpaqların mülkiyyət növləri və təbii-təsərrüfat yerləri, suvarılan və ümumi suvarılan torpaqların mülkiyyət növləri və təbii-təsərrüfat yerləri üzrə hesabatı təsdiq edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsinin ləğv edilməsi barədə" Ali Məclisi sədrinin müvafiq Sərəncamının icrası ilə əlaqədar Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilərək "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"nın müvafiq bəndi ləğv edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin ləğv edilməsi haqqında" Ali Məclis sədrinin müvafiq tarixli Sərəncamının icrası ilə əlaqədar Nazirlər Kabinetinin "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası" və "Sərnişinlərin icbari fərdi qəza sığortası"nın aparılması haqqında", "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat hadisələri nəticəsində dəyən sosial-iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi və hesablanması Qaydaları"nın təsdiq edilməsi haqqında" qərarları ləğv edilmişdir.

Həmçinin ləğv edilmiş Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin əmlak və ştat vahidlərinin Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sərəncamına verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində 2024-cü il 4 aprel tarixli Sərəncam imzalanmışdır. Sərəncama əsasən ləğv edilmiş Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin sərəncamına verilməsi nəzərdə tutulan əmlak və ştat vahidlərinin siyahıları, mərkəzi qida sınaq laboratoriyasının Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sərəncamına verilməsi nəzərdə tutulan əmlak ştat vahidlərinin siyahıları təsdiq edilmişdir.

## Diabetli uşaqların valideynləri göstərilən dəstəyə görə minnətdardırlar



Aprelin 5-də Naxçıvanda birinci tip şəkərli diabetdən əziyyət çəkən uşaqların valideynləri Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli ilə görüşüb, göstərilən dəstəyə görə minnətdarlıqlarını ifadə ediblər.

Görüş iştirakçılarına səlahiyyətli nümayəndə Fuad Nəcəflinin salamlarını çatdıran Samir Seyidəhmədli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində muxtar respublikada həyata keçirilən tədbirlər, o cümlədən səhiyyə islahatları barədə məlumat verib. Bildirib ki, şəkərli diabetdən əziyyət çəkən uşaqların dərman preparatları və digər ləvazimatlarla təminatı ilə yanaşı, ötən ildən başlayaraq ölkəmizdə ilk dəfə Naxçıvanda bu kateqoriyadan olan uşaqlara pulsuz müasir qlükoz sensorlar da verilir. 2023-cü ilin 6 ayı və cari ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşəbbüsü və dövlət dəstəyi hesabına 0-18 yaş arası şəkərli diabetli 82 uşaq 959 qlükoz sensorla təmin olunub.

Səlahiyyətli nümayəndənin müavini bildirib ki, tibbi-sosial tədbirlərin əlçatanlığının və davamlılığının təmin olunması məqsədilə bu tədbirlər bundan sonra da davam etdiriləcək.

Valideynlər adından çıxış edən Məhərrəm Əhmədov və Nisə Cəfərova qeyd ediblər ki, ötən il Ağbulaq İstirahət Mərkəzində təşkil olunan "Diabet mənim dostumdur" adlı istirahət düşərgəsi, eləcə də mütəmadi olaraq qlükoz sensorlarla təminat övladlarının tibbi, sosial və psixoloji inkişafına mühüm təsir göstərib, onların cəmiyyətə inteqrasiyasını təmin edib.

Valideynlər bütün bunlara görə dövlətimizə minnətdarlıqlarını bildirib, Naxçıvanda həyata keçirilən yenilikləri dəstəklədiklərini, dövlətimizlə daim həmrəy olduqlarını bildiriblər.

## Azərbaycan dünyanın yeddi ən cəlbedici investisiya ölkəsi sırasında

### *Bizi niyə ən qabaqcıl ölkə kimi seçiblər?*

Bu günlərdə Beynəlxalq Valyuta Fondu (BVF) Azərbaycanı dünyanın ən cəlbedici investisiya ölkəsi kimi ilk yeddiliyə daxil edib. Fondun 2024-cü il hesabatında əks olunan bu məlumat hər birimiz üçün qürurvericidir, eyni zamanda Azərbaycanın dünya ölkələri sırasında nüfuzunun göstəricisidir. Bəs BVF hansı kriteriyalara görə Azərbaycanı dünyada 7 ən cəlbedici investisiyaya malik ölkələr sırasına daxil edib?

Xatırladaq ki, ölkəmiz Beynəlxalq Valyuta Fonduna 1992-ci il sentyabrın 18-də üzv olub. Ötən illər ərzində BVF Azərbaycanda yoxsulluğun azaldılması, iqtisadi inkişaf, infrastruktur quruculuğu, müxtəlif layihələrin maliyyələşdirilməsi ilə bağlı çoxsaylı proqramlar həyata keçirib. Ötən ilin sonundan isə fond Azərbaycanda fəaliyyətini dayandırmışdı və bu qərarını ölkəmizin artıq güclü iqtisadiyyata və böyük maliyyə ehtiyatına malik olması ilə izah etmişdi. Amma bununla bərabər, BVF ölkəmizlə bağlı əlaqələrini davam etdirəcəyini, Azərbaycanın gələcək inkişaf strategiyası üçün dəstəyini əsirgəməyəcəyini, ehtiyac yaranarsa müxtəlif texniki yardımlar da göstərəcəyini bildirmişdi. Fondun Azərbaycanı dünyanın cəlbedici 7 ən böyük investisiya ölkəsi kimi 2024-cü ilin hesabatına daxil etməsi də mövcud əməkdaşlığın davam etdiyini göstərir.




Hamımıza məlumdur ki, xarici investorlar üçün ilk sırada fəaliyyət göstərəcəyi ölkələrin ictimai-siyasi stabilliyi və maliyyə sabitliyi dayanır. Azərbaycan nadir ölkələrdəndir ki, ötən əsrin 90-cı illərindən 2021-ci ilədək faktiki müharibə vəziyyətində olsa da, bu amil heç bir xarici investoru ölkəyə sərmayə yatırmaqdan çəkindirməyib. Çünki Azərbaycan investorların marağını ən yüksək səviyyədə təmin edib. Digər tərəfdən, ölkəmizdə bütün investorlar üçün bərabər şərait yaradılıb. Ölkə başçısının sözləri ilə desək, biz heç kimdən xahiş etmirik ki, iqtisadiyyatımıza investisiya yatırsınlar. Biz, sadəcə, ölkəmizdə bütün səviyyədən olan investorlar üçün bərabər investisiya mühiti yaradırıq. Bunu görüb dəyərləndirən investorlar isə Azərbaycana özləri gəlirlər.

Azərbaycan hökuməti ötən dövrdə investisiyaların təşviqi istiqamətində də mühüm işlər görüb. Belə ki, müvafiq qaydada investisiya təşviqi sənədini əldə edən investorların aldıqları texnika, texnoloji avadanlıqlar və qurğuların idxalı 7 il müddətinə gömrük rüsumundan azaddır və onların gəlirinin, habelə əldə etdikləri mənfəətin 50 faizi də eyni müddətə vergidən azad olunur. İnvestisiya təşviqi sənədi almış investor, həm də aldığı texnikanın, texnoloji avadanlıqların və qurğuların idxal əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən də 7 il müddətinə azad edilirlər. Təbii ki, bütün bunlar xarici investorlar üçün çox mühüm və cəlbedicidir.

Azərbaycanın investisiya cəlbediciliyini yüksəldən səbəblərdən biri, qeyd etdiyimiz kimi, ölkədə maliyyə sabitliyinin olmasıdır. Hamımıza məlumdur ki, bu gün dünyanın ən inkişaf etmiş ölkələrində belə makroiqtisadi problemlər, devalvasiya, inflyasiya mövcuddur. Bizdə isə bu sahədə vəziyyət stabildir. Buna görə də investisiyaları cəlb edə bilirik. Son illərdə qeyri-neft sektoruna xeyli həcmdə investisiyaların cəlbi də bunu təsdiq edir.

Xarici investorların Azərbaycana marağını təmin edən amillərdən biri də ölkənin iqtisadi yeniliklərə açıq olmasıdır. Məsələn, Azərbaycan ənənəvi kənd təsərrüfatı, neft və qaz sahələri ilə yanaşı, "yaşıl enerji", "ağıllı" yaşayış məntəqələri və sair kimi layihələrə də investisiyaları təşviq edir. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Böyük Britaniya şirkətləri ilə "yaşıl enerji" istehsalı və ixracı sahəsində görülən işlər digər xarici investorları da bu sahəyə həvəsləndirir. Artıq bu istiqamətdə sərmayə yatırmaq istəyən investorların da sayı çoxalıb.

Azərbaycanın xarici investisiyalar üçün cəlbedici ölkəyə çevrildiyini xarakterizə edən göstəricilərdən biri də son 20 ildə ölkəyə qoyulan xarici investisiyaların həcmidir. Statistikaya nəzər salsaq görərik ki, son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox xarici sərmayə yönəldilib. Diqqətçəkən məqamlardan biri odur ki, ölkə iqtisadiyyatına cəlb edilmiş xarici investisiyaların üçdə ikisinin və ya 200 milyard dollara yaxın məbləğinin iqtisadiyyatın real sektoruna yönəldilməsidir. Təkcə elə ötən il ölkə iqtisadiyyatına birbaşa xarici sərmayələrin həcmi 6,7 milyard dollar təşkil edib ki, bu da son 5 il üzrə ən yüksək göstərici hesab olunur.

Azərbaycanın investisiya perspektivinə müsbət təsir göstərən amillərdən biri Azərbaycanın xarici dövlət borcunun az olmasıdır. Hazırda belə borcumuz 6 milyard dollardan bir qədər çoxdur ki, bu da ümumi daxili məhsulun cəmi 9-10 faizini təşkil edir. Bu həm də dünya ölkələri arasında ən aşağı səviyyədir. Belə ki, ölkəmiz bu göstəriciyə görə dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında da ən az xarici dövlət borcu olan məhz Azərbaycandır. Bütövlükdə isə ölkəmizin valyuta ehtiyatları xarici dövlət borcundan 10 dəfə çoxdur. Buna görədir ki, artıq Azərbaycan borc alan yox, donor dövlətdir.

Sonda qeyd edək ki, Azərbaycan ötən dövrdə həm də özünə etibarlı dövlət imici formalaşdırıb: Azərbaycanın sözü imzası, imzası isə sözü qədər etibarlıdır. İstər xarici investorlarla razılaşmalarda, istərsə də dövlətlərarası müxtəlif layihələrin həyata keçirilməsində Azərbaycan hər zaman layiqli tərəf kimi çıxış edib. İllərlə qazanılmış bu etibar və nüfuz isə Beynəlxalq Valyuta Fondu kimi mötəbər qurumun hesabatlarında zaman-zaman öz əksini tapıb. Bu baxımdan Azərbaycanın ən cəlbedici investisiya ölkələri sırasına salınması nəinki təsadüfi deyil, hətta gözlənilən idi.

**Səbuhi HƏSƏNOV**

## Naxçıvanın su təchizatının yaxşılaşdırılması məqsədilə memorandum imzalanıb

Aprelin 18-də Naxçıvan Muxtar Respublikası ərazisində hidrogeoloji işlərin aparılması, yeraltı suların dayanıqlığını, kimyəvi tərkibini, ekoloji vəziyyətə təsirinin qiymətləndirilməsi və digər məsələlərlə bağlı "Qalf Drilling Saplay FZE" şirkəti ilə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında memorandum imzalanıb. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifələrini müvəqqəti icra edən Malik Rzayev bildirib ki, suvarma və içməli su problemlərinin həll olunması üçün etibarlı su mənbələrindən istifadə olunması mütləqdir. Muxtar respublika ərazisində ən etibarlı su mənbəyi Araz çayı və onun üzərindəki su anbarıdır. Araz çayının mövcud potensialından səmərəli istifadə etmək məqsədilə bir neçə layihə hazırlanmaqdadır. Bu layihələrin gerçəkləşməsi muxtar respublikanın suvarma suyuna olan tələbatının ödənilməsi istiqamətində əsaslı köməklik edəcəkdir. İmzalanan yeni memorandum da muxtar respublikanın su ehtiyatlarının artırılmasına öz töhfəsini verəcək.



"Qalf Drilling Saplay FZE" şirkətinin Azərbaycandakı filialının prezidenti Şaiq Bəkirov muxtar respublikanın su ehtiyatlarının artırılması üçün birgə fəaliyyət istiqamətlərindən danışıb, memorandumla bağlı təqdimatlar edib.

Tədbirdə fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

# Ümummilli Lider Heydər Əliyev:

*“Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir... Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.”*




# Azərbaycan mədəniyyətinin nadir incisi

## *Bu dəfə Şuşa “İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı” kimi dünyada tanınacaq*



Onu hələ görməmişəm. Ancaq ürəyimdə həmişə ona böyük sevgi bəsləmişəm. Məğrurluğu, yenilməzliyi, əyilməzliyi, təbii, incə ruhu onu mənə doğma edib. Cıdır düzündə keçirilən tədbirləri izlədikcə hər dəfə böyük qürur, fərəh hissləri keçirirəm hər bir vətəndaşımız kimi.

Azərbaycanın incisi, Qarabağın gözü, qədim abidələr məskəni Şuşamız görkəmli şəxsiyyətlər diyarı, muğam sənətimizin beşiyi, elm və mədəniyyət mərkəzidir. Qarabağ xanı Pənahəli xan tərəfindən dağların zirvəsində, möhkəm və keçilməz yerdə salınan bu şəhər alınmaz qala kimi şöhrətini qoruyub saxlayıb. Şuşamız işğal altında olanda belə milli ruhunu – Azərbaycan ruhunu saxlaya bilib, əyilməyib, öz doğmalarının yolunu gözləyib. Uzun həsrətdən – düz 28 ildən sonra Şuşamıza qovuşduq. Şanlı Vətən müharibəsinin igid, qeyrətli, rəşadətli Vətən oğulları canları-qanları bahasına onu bizə qaytardılar. 2020-ci il noyabrın 8-də əsgərlərimiz sıldırım qayalar, dərələr-təpələr aşaraq Şuşamızı işğaldan azad etdilər. Ali Baş Komandan, Prezident cənab İlham Əliyev Şəhidlər xiyabanından bu şad xəbəri verdi: ***“Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”*** Bu böyük Zəfər yenilməz Azərbaycan əsgərinin gücünün, qüdrətinin, Vətənə sədaqətinin, bir “dəmir yumruq” ətrafında birləşən xalqımızın dirçələn qürurunun, ləyaqətinin rəmzi idi. Bütün Azərbaycan “Qarabağ Azərbaycandır!”, “Şəhidlər ölməz, Vətən bölünməz!” şüarları ilə bu günü böyük sevinc və coşqu ilə qeyd etdi. Bu gün üçrəngli bayrağımız Şuşamızda, işğaldan azad edilmiş digər torpaqlarımızda əbədi dalğalanır. Hər il 8 noyabr tarixi – Şuşanın işğaldan azad olunduğu gün Azərbaycanda “Zəfər Günü” kimi qeyd edilir.

Azərbaycanın mədəniyyət paytaxtında qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, buradakı tarixi, dini və memarlıq abidələrinin, Cıdır düzündə “Xarıbülbül” Musiqi Festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili, Xurşidbanu Natəvan və Zəfər, həmçinin Qarabağ və Xan Şuşinski küçələrinin kəsişməsindəki lövhələrin açılışı onu göstərir ki, Şuşamıza milli ruh, milli ənənələr qaytarılıb. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi gələcək iş birliyimizin istiqamətini müəyyənləşdirir. Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayının keçirilməsi isə cənab Prezidentimizin Ata vəsiyyətini yerinə yetirən Lider kimi böyüklüyünü bir daha göstərir. 2022-ci ildə “Şuşa ili” çərçivəsində Şuşa şəhərinin 270 illiyi böyük təntənə ilə qeyd edildi. Bu gün Şuşamız müasir quruculuq və bərpa dövrünü yaşayır.

Prezident cənab İlham Əliyevin 2024-cü il 17 aprel tarixli “Şuşa şəhərinin 2024-cü il üçün “İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı” seçilməsi ilə bağlı tədbirlər haqqında” Sərəncamı Şuşaya göstərilən xüsusi qayğının və həssaslığın daha bir ifadəsidir. Sərəncamda qeyd edilir ki, 2023-cü il noyabrın 10-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının “Gənclər Paytaxtı 2024” Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilib. Şuşa şəhərinin 2024-cü il üçün “İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı” seçilməsi ilə bağlı fəaliyyət planı hazırlanacaq. Bu, Şuşanın həm mədəniyyət mərkəzi kimi, həm də İslam aləmində oynadığı rola, tutduğu mövqeyə verilən böyük qiymətdir. Azərbaycanın parlaq incisi kimi Şuşanın gənclərin birliyi, əməkdaşlığı vasitəsilə beynəlxalq aləmdə təbliği çox böyük bir addımdır.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Dövlət Filarmoniyası Kayseri şəhərində “Şuşa” Azərbaycan Evinin açılış mərasimində və muxtariyyətin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş tədbirdə konsert proqramı ilə çıxış edib




Aprelin 7-də Türkiyə Respublikasının Kayseri şəhərində Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin, Kayseri şəhəri Talas Bələdiyyəsinin təşkilatçılığı ilə “Şuşa” Azərbaycan Evinin açılış mərasimi gerçəkləşib, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyi qeyd olunub.

Hər iki ölkənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayan açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Prezidentin Şuşa rayonundakı xüsusi nümayəndəsi Aydın Kərimov, Talas bələdiyyəsinin sədri Mustafa Yalçın və digər rəsmilər iki qardaş ölkə arasında mövcud olan dostluq, qardaşlıq münasibətlərindən, Şuşa Bəyannaməsinin və “Şuşa” Azərbaycan Evinin gələcək nəsillər üçün tarixi önəmindən danışıblar. Vurğulanıb ki, 2022-ci ildə Şuşa şəhəri ilə Kayseri şəhəri arasında qardaşlaşmış şəhərlər haqqında protokol imzalanıb.

Qeyd edək ki, Azərbaycan Dostluq Parkında yerləşən, 2022-ci ildə əsası qoyulan “Şuşa” Azərbaycan Evinin fasadı Şuşa qalası şəklində inşa olunub, girişində isə Azərbaycan və Türkiyə bayraqları asılıb. Parkın ərazisində İsa bulağının surəti quraşdırılıb, Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılıb.



Tədbir “Ercies” Mədəniyyət Mərkəzində Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş konsert proqramı ilə davam etdirilib. Musiqili gecədə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı tərəfindən (bədii rəhbər Əməkdar artist Zeynalabdin Babayev) xalq və bəstəkar mahnıları, rəqs nömrələri təqdim olunub. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfiqar Mahmudov, filarmoniyanın solistləri Nərmin Hüseynova və Əfsanə Babayeva tərəfindən ifa edilən “Sizə salam gətirmişəm”, “Azərbaycan maralı”, “Sənə qurban”, “Axtarma məni”, “Qarabağ şikəstəsi”, “Yaşa, mənim xalqım”, “Çırpınırdın, Qara dəniz”, “Şuşanın dağları” musiqi nömrələri alqışlarla müşayiət olunub. Eyni zamanda “Şənlik” suitası, “Qavalla”, “Naz eləmə”, “Qobustan yallısı”, “Sarı gəlin” rəqs nömrələri, “Zəfər” kompozisiyası tamaşaçılarda xoş ovqat yaradıb.

Musiqili gecə C.Quliyevin “Azərbaycan-Türkiyə” əsərinin ifası ilə sona çatıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Kadr potensialının gücləndirilməsində hərbi kollecin rolu – *ekspert rəyi*

*Müzəffər Ordumuzun Böyük Qələbəsi ilə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin müdafiə potensialının gücləndirilməsi, hərbi qüdrətinin artırılması istiqamətində işlər yeni mərhələyə qədəm qoyub. Bu xüsusda diqqətçəkən məqamlardan mühümü məhz müharibənin, döyüş təcrübəsinin, eyni zamanda qardaş Türkiyənin hərbi sisteminin əsas götürüldüyü ordu quruculuğu tədbirlərinin həyata keçirilməsidir. Reallaşdırılan islahatların təməlində dünya hərb tarixinə qızıl hərflərlə yazılan Şuşa zəfəri və bu zəfərdə müstəsna xidmətləri olan xüsusi təyinatlı qüvvələr dayanır desək, yanılmarıq. Elə müharibənin ardınca işğaldan azad olunan torpaqlarda ilkin mərhələdə komando birliklərinin yaradılması da bu fikrin təsdiqidir. Ötən il dekabrın 14-də Prezident cənab İlham Əliyevin müvafiq Fərmanına əsasən ölkənin üç şəhərində xüsusi təyinatlı hərbi kollecin yaradılması da ordu quruculuğu, peşəkar hərbi kadrların hazırlanması istiqamətində reallaşdırılan sistemli tədbirlərin tərkib hissəsidir. Yeni yaradılan kollecin hərb təhsilində rolu, ordumuzun komplektləşdirilməsi işində, kadr təminatında əhəmiyyəti barədə Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant* ***İntiqam Ağasıyev****lə həmsöhbət olduq...*



***– Cənab polkovnik-leytenant, istərdim ilk olaraq oxucularımıza hərbi kollec təhsilinin mahiyyətini açıqlayaq. Ümumiyyətlə, dünya hərbi təhsil sistemində kollec təhsilinin rolu nədən ibarətdir və üstün tərəfləri hansılardır?***

– Hərb sənətində müasir dövrümüzün tələblərinə uyğun ehtiyac duyulan müxtəlif ixtisaslar üzrə mütəxəssislərin hazırlanmasına daim tələbat var. Dünyanın bir çox dövlətləri bu tələbatları qarşılamaq üçün müxtəlif strukturlu kolleclər formalaşdırırlar. Kolleclər hərbi ixtisaslarla yanaşı, mülki ixtisaslar üzrə subbakalavr peşə-ixtisas dərəcələri də verirlər. Təhsil səviyyəsinin daha yüksək olduğu bir çox ölkələrdə xüsusi kolleclər də fəaliyyət göstərir ki, onlar bakalavr proqramları çərçivəsində tədris prosesi həyata keçirməklə və hər hansı ali təhsil müəssisələri ilə əməkdaşlıq etməklə məzunlarına xüsusi bakalavr dərəcələrinin verilməsinə də nail olurlar. Müasir dünyamızda elmi-texniki, səhiyyə və informasiya-kommunikasiya texnologiyaları kimi sahələrin inkişafı hərbiyə böyük yeniliklər gətirib. Bu baxımdan yeni nəsil silah-sursatların, müasir döyüş və digər texnikaların, yüksək texnologiyalarla hazırlanmış optikelektron və texniki vasitələrin silahlanmaya qəbulu onların istismarı üçün peşəkar kadrların olması zərurətini doğurur. Eyni zamanda dünya ordularının peşəkar hərbçi kontingentlərindən ibarət olması faktı da onların hərbi kolleclərə ciddi əhəmiyyət verdikləri fikrini söyləməyə əsas verir. Bütün bunlar göstərir ki, inkişaf etmiş ölkələrdə səmərəli təhsilə və peşəkar kadra olan ehtiyac daha əlverişli təhsil modellərinin formalaşmasına səbəb olub. Dünya ölkələrindən danışarkən qardaş Türkiyə Respublikasının hərbi təhsil modeli bu baxımdan nümunə göstərmək olar.

***– Hamımıza məlumdur ki, Prezident cənab İlham Əliyevin ötən il dekabrın 14-də imzaladığı "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı ilə 3 şəhərdə xüsusi təyinatlı hərbi kollecin yaradılması nəzərdə tutulub ki, onlardan da biri Naxçıvanda fəaliyyət göstərəcək. Muxtar respublikadakı hərbi hissələrin kadr təminatı baxımından bu kollec nələr vəd verir?***

– Əvvəla, onu qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq Fərmanının timsalında biz əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu prosesinin yeni bir təzahürünü görürük. 44 günlük Vətən müharibəsindən indiyədək biz düşmənlərimizin sülh danışıqlarını uzatdıqlarını, həmçinin havadarlarının dəstəkləri ilə revanşist mövqe nümayiş etdirdiklərini müşahidə edirik. Belə bir zamanda Azərbaycan Ordusunun müasir tələblərə uyğun tələbatını qarşılamaq üçün maddi-texniki bazanın, silah və texnikaların müasirləşdirilməsi ilə yanaşı, peşəkar gizir kadrlarının hazırlanması üçün hərbi kolleclərin yaradılması mühüm əhəmiyyətə malikdir. Eyni zamanda qardaş Türkiyə Respublikasının hərbi təhsil modelinə diqqət yetirsək, digər qabaqcıl dövlətlərdə olduğu kimi, onların da professional hərbi kontingent formalaşdırdığını görərik. Müasir döyüşlər peşəkarların döyüşüdür. Onların aparılan əməliyyatlara əhəmiyyətli təsiri danılmazdır. Biz bunun 44 günlük Vətən müharibəsində də şahidi olduq. Bu baxımdan Azərbaycan Ordusu üçün də yeni nəsil silah-sursatlardan, müxtəlif təyinatlı texniki vasitələrdən bacarıqla istifadə etmək məqsədilə peşəkar gizirlərin yetişdirilməsinin vacibliyini xüsusi qeyd etmək lazımdır. Bu məsələlər Naxçıvan Muxtar Respublikasında yaradılan hərbi kollecin qədim diyarın müdafiəsində dayanan hərbi hissələr üçün nə dərəcədə lazımlı olduğunu göstərir. Həmçinin Naxçıvanın blokadada olması faktını da nəzərə alsaq, bu kollecin yaradılması Vətənimizin müdafiəsində durmaq arzusunda olan gənclərlə hərbi hissələrdə peşəkar kadr balansının saxlanılması üçün də böyük əhəmiyyətə malikdir.

***– Bildiyimiz kimi, Naxçıvanda artıq uzun illərdir, fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Lisey ordumuzun peşəkar zabitlərlə təminində mühüm rol oynayır. Hərbi liseylə müqayisədə hərbi kollecin hansı üstünlükləri var? Bu barədə fikirləriniz maraqlı olardı...***

– Üstünlüklər hər iki təhsil ocağında vardır. Lakin onları qarşılaşdırdıqda aralarında olan müəyyən fərqlərə biri digərindən üstünlük təşkil edir. Bilirik ki, Heydər Əliyev adına Hərbi Lisey Azərbaycan Respublikasının digər hərbi lisey və orta ümumi təhsil müəssisələri ilə birlikdə ali hərbi təhsil müəssisələrində hazırlanan peşəkar zabit kadrları balansının nizamlanmasında böyük rol oynayır. Lisey, eyni zamanda məzunlarını hərbi yönümdə yetişdirməklə ali hərbi təhsil müəssisələrində təhsil almaları üçün avantajlı təhsil ocağıdır. Lakin bütün hərbi liseylər kursantların konkret olaraq hansısa ixtisasa yiyələnməsini təmin etmir. Bunun üçün kursantın ali təhsil müəssisələrində hər hansı ixtisas üzrə bakalavr təhsili alması zərurəti yaranır. Hərbi kolleclər isə bunun əksinə olaraq kursantlarına hərbi ixtisaslarla yanaşı, mülki ixtisaslar üzrə subbakalavr peşə-ixtisas dərəcəsi verməklə məzun olduqdan sonra birbaşa hərbi xidmətə başlamaq imkanı yaradır. Həmçinin kolleclərin yaş həddinin hərbi liseylərlə müqayisədə yuxarı olması gənclərin kollecdə və məzun olduqdan dərhal sonra sosial ehtiyaclarının qarşılanması baxımından üstünlükləri çoxdur.

***– Əvvəlki sualımızın davamı kimi istərdik ki, hərbi liseylə hərbi kollecin oxşar və fərqli cəhətlərini daha ətraflı şəkildə öyrənək.***

– Oxşar cəhətlərə toxunduqda istər hərbi lisey olsun, istərsə də hərbi kollec bu təhsil ocaqları Azərbaycan Respublikasının kişi cinsindən olan vətəndaşlarının hərbi təhsili üçün nəzərdə tutulub. Amma yaş hədlərinin müqayisəsində hərbi liseylərə 15 yaşı tamam olmuş, 17 yaşı tamam olmayan vətəndaşların qəbulu nəzərdə tutulursa, kolleclərə 17 yaşı tamam olmuş və 20 yaşı tamam olmayan, həmçinin müəyyən kateqoriyalar üçün 18-23 yaşlı vətəndaşların qəbulunun nəzərdə tutulması ciddi fərq kimi göstərə bilərik. Hərbi liseylərin ali təhsil ocaqları üçün kursantlar formalaşdırdığını, kolleclərin isə əksinə olaraq məzunlara subbakalavr peşə-ixtisas dərəcəsi verməsi ilə arada ciddi fərq yaratmasına baxmayaraq, gələcəkdə yalnız müdafiə xidməti ixtisaslı və taqım komandirinin müavini vəzifələrində 5 il xidmət etmiş gizirlərin ali hərbi təhsil müəssisələrində 3-cü, 4-cü kurslarda təhsilini davam etdirərək leytenant hərbi rütbəsi, həmçinin bakalavr dərəcəsi almaq kimi oxşarlıqları da vardır. Fərqləndirməyə təhsil ocaqlarında aparılan tədris proqramını da əlavə etsək, hərbi liseylərin orta ümumtəhsil sistemi, hərbi kolleclərin isə subbakalavr proqramı əsasında təhsil verdiklərini misal göstərmək olar. Hər iki təhsil ocağında təlim-tərbiyə və təhsil formasına uyğun olaraq kursantların bütün növ təminatlarla təmini nəzərdə tutulur. Lakin yaş hədlərinin müqayisəsindəki ciddi fərqləri nəzərə alsaq, kolleclərdə təhsil alan kateqoriyanın daha yuxarı yaş həddi olması burada sosial təminatların da daha yüksək olduğunu göstərir.

***– Artıq növbəti tədris ilindən yeni yaradılan xüsusi təyinatlı hərbi kollecə qəbul aparılacaq. İlkin mərhələdə bu istiqamətdə görüləcək işlər barəsində nələrə diqqəti çəkmək olar?***

– İlk olaraq görüləcək işlərin əvvəlində kollec və ona qəbulla bağlı müraciət etmək istəyən vətəndaşlarımız üçün informasiyanın əlçatanlığı durur. Artıq bu istiqamətdə fəaliyyətdə olan rəsmi saytlar, əlaqə saxlanılması üçün telefon nömrələri mövcuddur. Digər mərhələdə isə kollecə qəbulla bağlı sənədlərin qəbulu yer tutur ki, bu mərhələdə sənəd verən vətəndaşların digər mərhələdə iştirakı üçün təqdim etdikləri sənədləri əsasında şəxsi məlumatlarının ciddi yoxlanılması diqqət mərkəzində saxlanılır. Daha sonra digər hərbi təyinatlı müəssisələrdə olduğu kimi, vətəndaşların hərbi həkim komissiyası tərəfindən müayinəsinin keçirilməsi ilə namizədlərin siyahıları yekunlaşdırılır. Sonuncu mərhələ isə namizədlərin kollecə qəbulu mərhələsidir. Burada bir məqama diqqət çəkmək istərdim ki, qəbulda qiymətləndirmə nəticələri iki istiqamətdə aparılır. Belə ki, şagirdlər üçün kollecə qəbul müvafiq tədris ilində tam orta təhsil səviyyəsi üçün buraxılış imtahanında, digərləri üçün isə müvafiq tədris ilində keçirilən qəbul imtahanlarının nəticələrinə görə Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçiriləcəkdir.

***– Suallarımızı ətraflı cavablandırdığınız üçün sağ olun!***

**Nail ƏSGƏROV**

# Fransanın məkrli fəaliyyəti Ermənistanın çıxılmaz vəziyyətini daha da dərinləşdirir

Bu gün Azərbaycan nəinki regionda, dünya dövlətləri içərisində öz gücü, qüdrəti və inkişafı ilə seçilir, regionun davamlı inkişafına öz töhfələrini verir. Ölkəmiz ən böyük layihələrə təşkilatçılıq və ev sahibliyi edir.

Təəssüf ki, bu gün nailiyyətlərdən ciddi təşvişə düşən, bu mənzərəni qəbul edə bilməyən məkrli qüvvələr bu nizamı pozmağa maraqlıdırlar. Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun milli maraqlarını təmin etməsi reallığı fonunda isə Fransanın davranışı təəccüblü görünmür. Tarixi soyqırımları üzərində qurulan Fransa özünü beynəlxalq aləmə "demokratik" ölkə kimi sırımağa çalışsa da, əməlləri ilə hələ də müstəmləkəçilik ideyalarına sadiq qaldığını sübut edir. Reallıq bundan ibarətdir ki, 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan, bir milyondan çox insanın faciəsinə səbəb olan, şəhər və kəndlərimizi xarabazarlığa çevirən erməniləri yazıq, əzilən, ac-yalavac, hüquqları pozulan millət kimi dünyaya təqdim etmək, onların tərəfində durmaq Fransanın dövlət siyasətinə, ən əli məqsədinə çevrilmişdir. Bu, əslində, təcavüzkar Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirmək, qarşıdurmanı kəskinləşdirmək, müharibəni alovlandırmaq, Cənubi Qafqazda təhlükəsizliyi sarsıtmaqdır. Makron yaxşı anlayır ki, Azərbaycan özünün milli təhlükəsizliyini qorumağa, sərhədlərini möhkəmləndirməyə, düşmənə və havadarlarına cavab verməyə qadirdir və onun təsir göstərə biləcəyi dövlət deyil. Belə olan halda təcavüzkarları qızışdırmağa, Cənubi Qafqazda söz sahibi olmağa cəhd edir. Ermənistana yüz milyonlarla dollar məbləğində silah-sursat verilməklə Cənubi Qafqazı Suriyaya, Ukraynaya çevirmək kimi təhlükəli planını reallaşdırmağa çalışır. Özünü "sülh təşəbbüsçüsü" kimi göstərən Fransa prezidenti Makron regionda Ermənistanı sürətli silahlandırmaqla onu yeni müharibəyə sövq edir. Bölgəyə silah-sursat göndərən rəsmi Paris yeni münaqişələr üçün zəmin yaradır. Bununla da əsrlərlə etdiyi vəhşilikləri unutdurmağa çalışır. Onu da unudur ki, heç kim və heç nə yaddan çıxmır və unudulmur. Tarix öz sözün deyir...



**Arzu ABDULLAYEV**
*Naxçıvan Dövlət Universitetinin prorektoru, tarixçi-alim*

XVI əsrdən müstəmləkəçilik siyasəti yürüdən Fransanın II Dünya müharibəsindən əvvəl işğal etdiyi ərazilərdə həyata keçirdiyi talançılıq və qətlləri bütün dünyaya məlumdur. Fransanın yüzilliklər boyu dünyanın müxtəlif bölgələrində törətdiyi hərbi və insanlığa qarşı cinayətlər artıq dillər əzbəri olub. Yaxın keçmişi "qanlı ləkələr"lə zəngin olan müstəmləkəçi Fransanın Əlcəzairdə, Mərakeşdə, Ruandada və digər Afrika ölkələrində törətdiyi kütləvi soyqırımlar, amansız qırğınlar bəşəri cinayətlər kimi tanınır. Əlcəzairdə bir milyondan çox insanın soyqırımına səbəbkar olan Fransa bunu unutdurmağa çalışsa da, tarix bunu heç vaxt unutmayacaq. 1944-cü ilin noyabrında baş verən Seneqal hadisələrində fransızlar tərəfindən yüzlərlə Seneqal əsgəri güllələndi. 1994-cü ildə fransızlar Ruandada "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat həyata keçirdilər. Nəticədə, 800 mindən çox insan qətlə yetirildi.

Bu səbəbdən Fransa öz qanlı ənənəsinə sadiq qalaraq Qafqazda müharibənin bir daha baş qaldırması üçün bütün yollara, bəd əməllərə baş vurur. Elə ona görə də Fransa bu gün regionda sülh və inkişaf üçün çalışan Azərbaycanın deyil, xisləti terror, soyqırımı olan "kiçik bacı"sı Ermənistanın yanında yer alıb.

Dünyada nüfuzunu gündən-günə itirən Fransa son çarə kimi təcavüzkar Ermənistan üzərindən Cənubi Qafqaza yerləşərək buranı özünün növbəti koloniyasına çevirmək istəyir. Paris "sülhməramlı missiya" adı altında regionda qanlı müharibə ssenariləri planlaşdırır. Cənubi Qafqazda baş verən proseslərdən öz xeyrinə faydalanmaq, bu ərazini təsir dairəsinə salmaq istəyir. Bakı ilə İrəvan arasında sülhün qarşısına cidd-cəhdlə sədd çəkir. Ermənistan isə hələ də qəflət yuxusundan ayılmır. Ayılsa dərk edər ki, sürətli silahlanma gələcəkdə ona yeni-yeni problemlər, səfalət, yeni münaqişələr gətirəcək. "Kiçik bacı" Fransanın çirkin və dağıdıcı, riyakar planlarından nə qədər tez imtina etsə, ölkəsinin gələcək inkişafına, regionda sülhə yol açmış olacaq.

Bir sözlə, Qərbin, xüsusilə Fransanın yürütdüyü siyasət, məkrli fəaliyyət bu ölkənin sarsılmış imicini və Ermənistanın çıxılmaz vəziyyətini daha da dərinləşdirir.

Birmənalı olaraq Ermənistan dərk etməlidir ki, Azərbaycanın siyasəti Cənubi Qafqaz regionu üçün prioritet olaraq gələcək hədəfləri müəyyən edən yeganə düzgün siyasətdir. Çünki Cənubi Qafqaz bu gün sabitlik adasına çevrilibsə, bu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin liderliyi, müdrik siyasəti, qlobal müstəvidə artan nüfuzunun və siyasi çəkisinin nəticəsindədir.

# Gələcəyin mübariz asayiş keşikçiləri

## Orta İxtisas Polis Məktəbində bir gün





Xalqın və dövlətin mənafeyinə ləyaqətlə xidmət etmək, ölkədə ictimai asayişin, təhlükəsizliyin mühafizəsi, əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirmək – onların əsas məqsədi budur. Hadisə yerində olmaq və bu işi vicdanla yerinə yetirməyi bacarmaq. Şahid olanlar bilir ki, bu, çox təhlükəli və riskli peşədir. Təbii ki, insanları təhlükədən qorumaq üçün əvvəlcə bu peşənin, bu sahənin sirlərini öyrənməlisən. Bəs bu peşənin sirləri nədir? İctimai asayiş keşikçilərinin bu peşəni necə öyrəndiklərini bilmək üçün Azərbaycan Respublikası Daxil İşlər Nazirliyi Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinə yollandıq.





***Əsas məqsəd: dövlətə sədaqətli vətəndaş yetişdirmək***

Naxçıvan şəhərindəki Orta İxtisas Polis Məktəbinə daxil olarkən burada tam sakitlik hökm sürürdü. Məlum oldu ki, kursantların hamısı təlim atışına yollanıb. Fürsətdən istifadə edib məktəbin rəisi, polis polkovniki Kamil Məmmədəliyevlə söhbətləşdik. Rəis bildirdi ki, Orta İxtisas Polis Məktəbi Azərbaycanın ən gənc təhsil müəssisələrindən biridir və cəmi 5-ci ildir ki, fəaliyyət göstərir. Bu illər ərzində məktəbin 3 məzun buraxılışı olub. Orta İxtisas Polis Məktəbinin fəaliyyətinin əsas istiqaməti daxili işlər orqanları üçün orta ixtisas təhsilli zabit kadrları hazırlamaq və daxili işlər orqanları əməkdaşlarının əlavə təhsil almalarını təşkil etməkdir. Belə ki, məktəbdə orta ixtisas təhsili alan kursantlarla yanaşı, daxili işlər orqanlarında xidmətə yeni qəbul edilmiş sıravi və kiçik rəis heyəti əməkdaşları da ilkin hazırlıq kursu keçirlər. Təhsil alanlar dövlət hesabına təqaüd, geyim, yataqxana və yeməklə təmin olunurlar. Orta ixtisas təhsilini müvəffəqiyyətlə bitirən məzunlara Hüquq-mühafizə fəaliyyəti ixtisası verilməklə, daxili işlər orqanlarında polis zabiti kimi xidməti vəzifələrə təyin olunurlar.

Kamil Məmmədəliyev onu da diqqətimizə çatdırdı ki, polis məktəbində əsas məqsəd ixtisaslı kadrlarla yanaşı, həm də dövlətə sədaqətli vətəndaşlar yetişdirməkdir. Çünki Vətəninə, millətinə, xalqına sadiq, sədaqətli kursant gələcəkdə də bir fərd kimi cəmiyyətə öz töhfəsini vermiş olur.

***Müasir təhsil***

Orta İxtisas Polis Məktəbində təhsilin yüksək səviyyədə aparılması, kursantların nəzəri və praktiki vərdişlərə yiyələnməsi üçün elmi tədris bazası, 3 mindən artıq kitabı olan zəngin kitabxana yaradılıb. Kitabxanada Ulu Öndər Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən siyasi ədəbiyyatlar guşəsi də fəaliyyət göstərir. Məktəbdə kriminalistik laboratoriya və avtonəqliyyat vasitələrinin istismarı və sürücü təlim simulyatoru quraşdırılıb. Burada texniki göstəriciləri və parametrləri avtomobillə eynilik təşkil edən simulyator müxtəlif yol və hava şəraitində təlimin keçirilməsinə imkan verir. Həmçinin polis məktəbində hərbi hazırlıq, tibb, kompüter və kursantlara praktiki təlim atışlarını və mürəkkəb əməliyyat şəraitində çevik qərar qəbuletmə vərdişlərini öyrətmək məqsədilə texnologiyanın müasir növləri ilə təchiz edilmiş interaktiv atəş hazırlığı sinfi lazımi avadanlıqlarla təchiz olunub. Onu da qeyd edək ki, məktəbdə kursantların fiziki hazırlığının möhkəmləndirilməsi, onların fiziki göstəricilərinin yüksəldilməsi məqsədilə həm açıq, həm də qapalı şəraitdə idman zalları da mövcuddur. Dərslər isə yüksək səviyyədə tədris olunur. Tədris metodiki bölmənin baş müəllimi, polis mayoru Rəşad Məmmədov deyir ki, Orta İxtisas Polis Məktəbinin pedaqoji heyəti olaraq qarşımızda duran vəzifə vətənpərvər, polis andına sadiq, intizamlı və peşəkar polis əməkdaşlarının hazırlanmasıdır: "Bu məqsədlə fəaliyyətimizi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası və A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbi ilə əlaqəli şəkildə quraraq müasir təlim-tədris metodlarından istifadə edirik. Tədrisin innovativ metodlarından istifadə etmək üçün polis məktəbində lazımi şərait yaradılmışdır. Təhsilalanların nəzəri və praktiki biliklərə yiyələnməsi ilə yanaşı, onların intellektual təfəkkürünün və ümumi dünyagörüşünün artırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Üzərimizə düşən məsuliyyəti dərk edərək qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün bundan sonra da səylə çalışacağıq".

***"Arzumuz polis andına sadiq polis zabiti olmaqdır"***

Bu gün ölkəmizdə demokratikləşmə proseslərinin inkişafı, cəmiyyət quruculuğu yönündə atılan mühüm addımlar polis orqanlarının fəaliyyətinə də öz müsbət təsirini göstərib. Məhz bunun nəticəsidir ki, hazırda ictimai asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə uğurlar əvvəlki illərlə müqayisədə xeyli artıb. Təbii ki, bunun təməlində ilkin atılan addımlar dayanır. Kursant Kamal Mehdiyev deyir ki, burada asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb. Günün nizam qaydalarına uyğun olaraq dərs məşğələləri bitdikdən sonra açıq və qapalı idman zallarında fiziki hazırlığımızı artırırıq, intellektual oyunlarla, mütaliə ilə məşğul oluruq. Bundan başqa, ölkəmizdə və dünyada baş verən hadisələr barədə məlumatlar əldə edirik. Polis zabiti olmağın məsuliyyətini dərk edirik. Ona görə də çalışırıq ki, təhsil aldığımız müddətdə yüksək biliklər əldə etməklə yanaşı, intellektual səviyyəmizi və ümumi dünyagörüşümüzü də artıraq.

Məktəbdə polisin fəaliyyətinə dair nəzəri və praktiki biliklər əldə etmək, fiziki və döyüş hazırlığının yüksəldilməsi üçün də mühüm işlər görülür. Kursant Maqsud Əliyev bizimlə söhbətində bildirdi ki, onun praktiki məşğələlərə daha çox marağı var: "Gələcəkdə peşəkar polis zabiti olmaq üçün təhsil aldığımız müddətdə tədris olunan fundamental hüquq fənlərini öyrənməyə, qanunvericilik sisteminə daxil olan aktların tələblərini dərindən mənimsəməyə səy göstəririk. Mənim praktiki məşğələlərə daha çox marağım var. Bu məşğələlərdə polisin fəaliyyətinə dair sənədlərin tərtib olunması qaydalarını öyrənirik. Atış və kütləvi iğtişaşların qarşısının alınması sahəsində keçirilən təlimlərdə iştirak edirik və bu, döyüş hazırlığımızın yüksəldilməsində mühüm rol oynayır. Bizim arzumuz gələcəkdə Vətənimizə, dövlətimizə və polis andına sadiq peşəkar polis zabiti olmaqdır".

Polis məktəbində digər mühüm məsələ heyətin sağlamlığını daim nəzarətdə saxlamaq, kursantların qidalanmasına böyük önəm verməkdir. Odur ki, burada ərzaq məhsullarının keyfiyyətinə ciddi nəzarət olunur. Diqqətçəkən ən önəmli məqam isə zabit heyəti ilə kursantların eyni anda, eyni məkanda yemək yeməsidir. Təbii ki, bu hal kursantlarda həm özünəgüvən, həm də gələcək nəsillər üçün "Polis necə olmalıdır?" şüurunu formalaşdırır. Ümumiyyətlə, Orta İxtisas Polis Məktəbinin üstünlükləri çoxdur: həm təhsil alırsan, həm də məzun olduqda həmin sahə üzrə işlə təmin edilirsən.

Tədris korpusundan, yeməkxana və yataqxana binalarından ibarət olan Orta İxtisas Polis Məktəbində təhsilin müasir tələblər səviyyəsində hazırlanması, kadrların təkmilləşdirilməsi daim diqqətdə saxlanılır. Şübhəsiz ki, bu məktəbin məzunları ölkəmizdə asayişin, təhlükəsizliyin təminatı üçün nümunəvi fəaliyyət göstərəcəklər.

**Ceyhun MƏMMƏDOV**











# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Vərməziyar kəndindən olan şəhidimiz Elməddin Meydanovun anası Sünbül Hətəmovanın, Sədərək rayonunun Heydərabad qəsəbəsindən olan şəhidimiz Ərtoğrul Nadirlinin anası Nahidə Rzayevanın və Kəngərli rayonunun Şahtaxtı kəndindən olan şəhidimiz Elməddin Həsənovun atası Elşən Həsənovun övladları haqqında xatirələri yer alıb.*

## Elməddin Bahaddin oğlu Meydanov

*(11.09.1989-27.10.2020)*

### Hər kəsi igidliyi ilə heyran etdi





Elməddin balaca vaxtından kitabları sevirdi. Üçüncü sinifdə oxuyanda Türkiyəyə köçdük. Yeddinci sinfə qədər orada təhsil aldı. Sonra təhsilini Vərməziyar kəndində davam etdirdi. Hərbi liseyə daxil olub, oranı fərqlənmə ilə bitirdi. Sonra AHM-ə daxil oldu. Akademiyada sərhəd qoşunlarını seçdi. Balaca vaxtından deyirdi ki, mən komandir olacağam. Oldu da. Elə bir igid komandir ki hər kəsi öz igidliyi ilə heyran etdi.

Yaxşı xidmətinə görə tez bir vaxtda Elməddinin rütbəsini yüksəltdilər. Həm də çox zəhmətkeş idi. Qulluq etdiyi yerdə bir iz qoyurdu. Hərbi hissələrin birində bağ da salmışdı. Deyirdim ki, ay Elməddin, bunu neynirsən? Deyirdi ki, buraya gələndə bu kölgədə dincələcəyəm. Qoy məndən xatirə qalsın. Desinlər ki, burada Elməddin işləyib. Bu bağı o salıb.



Elməddini tələbkar bir zabit kimi tanıyırdılar. 2020-ci ildə yaxşı xidmət etdiyi üçün təyinatı Sərhəd Qoşunları Akademiyasına verildi. Orada müəllim kimi fəaliyyət göstərəcəkdi. Amma iyul hadisələrindən sonra bu təyinat dayandırılır. Elməddin təlimlərə, oradan da döyüş bölgəsinə gedir.

Sentyabrın 11-də doğum günü idi Elməddinin. Telefonla danışırdıq. Dedi ki, ana, gəl söhbət edək. Dedim ki, nə söhbət. Cavab verdi ki, heç nə, ana-bala kimi söhbət edək. Doyunca danışdıq telefonla. İstəyirdim ki, daha çox o danışsın. Ona görə arabir susurdum. Elə hey deyirdi, ana, danış səsini eşidim. Dedim ki, telefonu ver Səmaya. Cavab verdi ki, ana, Səmanı çox görəcəksən, mənimlə danış. Birdən qayıtdı ki, ana, gəl halallaşaq. Mən də dedim ki, ay oğul, bu nə sözdür? Dedi, ana, ola bilər də. Dedim, ay Elməddin, sənə neyləmişəm halalın olsun. Dedi, ana, bu mənə bəsdir daha, mən elə bunu istəyirdim. Bir də onu dedi ki, ana, mənə heç vaxt zəng vurma, mən təlimdəyəm, gələn kimi özüm sənə zəng vuracağam.

Bax belə oğul idi mənim igid, qəhrəman Elməddinim. Çox qürurlu, çox da dərdliyik. Nə deyim, Vətən sağ olsun!

## Ərtoğrul Hümbət oğlu Nadirli

*(31.03.1997-02.10.2020)*

### Çox vətənpərvər ruhlu idi



Cəmi 23 il yaşadı. Bu qısa ömür şərəfli oldu. Çox şey danışa bilərəm. Ancaq ondan danışmaq çox çətindir. O da var ki, bu, Allahın qismətidir. Şəhidlik zirvəsi də hər adama qismət olmaz. Hər kəs istəyər ki, bu ali mərtəbəyə yüksəlsin. Mənim balam da bu ali mərtəbəni qazandı. Düzdür, bizim üçün çox ağırdı, acılıdı. Amma təsəllimiz Ərtoğrulumuzun qəhrəman olmasıdır.



Ərtoğrul çox çalışqan uşaq idi. Atası ona böyük şairimiz Hüseyn Cavidin oğlunun adını vermişdi. Çox vətənpərvər ruhlu idi Ərtoğrul. Hər zaman tarixi əks etdirən filmlərə baxırdı. Ərtoğrul 31 mart – Azərbaycanlıların Soyqırımı Günü dünyaya gəlmişdi. Hər zaman bu gün doğulmağını tarixi gün hesab edirdi.

Oğlum balaca vaxtından idmanı sevən uşaq idi. Atası uşaqları təlimə aparır, güllə atdırırdı. Məktəbdə oxuyanda çəkmələrinin içərisinə daş doldurub uzaq məsafəni qaçırdı. Deyirdim ki, Ərtoğrul ayağın yara olacaq. Gülə-gülə deyirdi ki, ana, heç nə olmaz. Hərbi liseydə oxuyurdu. Əlaçı idi. Məzuniyyətə gələrkən vaxtının çoxunu idmana ayırırdı. Bir yerdə dayanmırdı. İdmanın hər növü ilə məşğul olurdu.



Ərtoğrul üç il Heydər Əliyev adına Hərbi Liseydə, dörd il akademiyada təhsil almışdı. Bir il altı ay xidmətdə oldu. Onunla telefonla danışanda heç vaxt giley etmədi. Deyirdi ki, hər şey qaydasındadır.

Ərtoğrula bütün dostları "Ərtoğrul şah" deyirdilər. Ərtoğrulun orada etdikləri onun bu adı almasına səbəb olub. Bütün ailəli hərbçilərə köməklik edib. Xidmət etdikləri posta öz vəsaiti hesabına su çəkdirib. Həmin su çəkilən yerdə dostları "Şah sağ olsun" sözlərini yazıblar.

Ərtoğrul Kəlbəcərdə döyüşürdü. 2 oktyabrda şəhid oldu. Telefonla danışdıqda da heç vaxt dilinə gətirmədi ki, biz döyüşdəyik. Sonuncu dəfə danışanda dedi ki, bizi, bəlkə, yuxarı qaldırdılar. Son sözü də elə o oldu. Amma həmin vaxt artıq onlar döyüşürmüşlər. Oktyabrın 23-də Ərtoğrulun nəşi şəhid olduğu yerdən götürülüb.

Nə etmək olar ki... Allah şəhidlərimizin ruhlarını şad, məkanlarını cənnət etsin!

## Elməddin Elşən oğlu Həsənov

*(25.02.1996-21.10.2020)*

### Vətənini sevən oğul





Elməddinin həyata baxışı çox qəribə idi. Üzündən təbəssüm əksik olmurdu. Hər şeyə sevinirdi. Evin, ailənin qədrini bilirdi. Hər işdə mənə yaxından köməklik edirdi. Elə yaxın qohumlarımıza, dostlarımıza da. Buna görə də xətrini çox istəyirdilər onun.

Elməddin balaca vaxtından deyirdi ki, hərbçi olmaq istəyirəm. Sonra hərbi liseyə qəbul oldu. Dörd il orada təhsil aldı. Əlaçı idi. Əsgərliyə getdi. Qayıtdıqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başladı. 3 il işlədi.

Onun doğum günü 26 fevral idi. Xocalı faciəsinə görə özünə heç vaxt ad günü etmirdi.

Şəhid olmağına 3 gün qalmış həyətdə idim. Saat 2-3 arası olardı. Elməddin zəng vurdu. Telefonu açdım. Açan kimi dedi ki, darıxmayın. Hər şey yaxşıdı. Yaxşı da olacaq. Narahat olmayın. Mən də ona bir kəlmə dedim ki, özündən muğayat ol. Dedi ki, ata, burada heç nə yoxdu. Hər şey öz qaydasındadır. Sonra telefonu bacısına verməyimi xahiş etdi. Mən də telefonu qızıma verdim. Qızımla danışdı. Bacısına dedi ki, nənəmə salam deyərsən. Özünüzdən muğayat olun.

Aradan 3 gün keçdi. 21 oktyabrda qardaşımın oğluna hərbi komissarlıq tərəfindən şəhid xəbəri verilmişdi. Mənə demirdilər. 22 oktyabrda kəndə çıxdım. Gördüm ki, hamı mənə baxır. Hətta bir-iki nəfər məndən soruşdu ki, qaqaşdan xəbər varmı? Dedim ki, 3 gün bundan əvvəl danışmışam. Evə qayıtdım. Gördüm ki, bütün qohumlar bizdədir. Bildim ki, Elməddinə nəsə olub. Əvvəlcə dedilər yaralıdı. Hərbi komissar evə gələndə bildim ki, Elməddin şəhid olub.





# Dağlar qoynundan boylanan tarix



Dağlarından kəklikotu ətri gələn, tarixi, mədəniyyəti ilə Naxçıvan torpağını yaxın-uzaq ellərdə tanıdan bu kənd tarixboyu, elə bu gün də keçmişi ilə tədqiqatçıların diqqətini özünə cəlb edir. Bu yaşayış məntəqəsi təkcə muxtar respublikanın deyil, ümumilikdə, Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olmaqla daim diqqət mərkəzində olub.

*Tarix ondan danışır*

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Tarixi mənbələr Qarabağlar kəndi və Qarabağlar türbə kompleksi haqqında” məqaləsində bildirir ki, Qarabağlar adı Kəngərli tayfa birləşmələrinə məxsus ad olub. “Kəngərlilərin böyük bir bölümü”, “Kəngərlilərin güclü, qüdrətli bir hissəsi” mənasında işlənir və bu fikri yerli faktlar da təsdiqləyir. Belə ki, Qarabağlar kəndi və onun ətrafı tarixən Kəngərli zonası, bu ərazidə yerləşən yaşayış məntəqələri isə Kəngərli kəndləri adlanır. Çünki Xok mahalında yaşayanların əksəriyyəti azərbaycanlı, böyük hissəsi isə Kəngərli tayfalarına mənsub olub və tayfanın Qarabağlar qolu eyniadlı kənddə məskunlaşıb. Deməli, Qarabağlar kəndinin adı Qarabağ tayfasının adından yaranıb. Ona görə də Qarabağlar qədim türk mənşəli peçeneqlərin Qarabağ tayfasının adını əks etdirir.

Tədqiqatçıların araşdırmalarına diqqət yetirəndə görürük ki, kəndin şimal-şərqində Qalacıq adlanan ərazidə e.ə. II minilliyə və I minilliyin əvvəllərinə aid yaşayış yeri (sahəsi, təqribən, 40 hektar) aşkar edilmişdir. Burada tunc bəzək əşyaları, boyalı qab qırıqları, iri qaya parçalarından tikilmiş dördkünc və ovalşəkilli bina qalıqları tapılmışdır. Qarabağlardakı qədim qəbiristanlıqda at və qoç formalı qəbirüstü abidələr aşkar edilmişdir. Bu kənd ən qədim yaşayış məskənlərindən biri olmaqla tariximizin orta əsrlər dövründə Azərbaycanın qədim şəhərlərindən birinə çevrilmişdir.

Deyilənlərə görə, qədim Qarabağların ərazisi indiki Tənənəm kəndinə qədər imiş. Həmin dövrlərdə Qarabağlar mədrəsələrində riyaziyyat, nücum elmləri öyrədilirmiş. Tarixən kənddə məskunlaşmış türk tayfalarının nişanələri də bu gün Qarabağların əsas məhəllələrinin adlarında yaşadılmaqdadır. Süleymanlı, Bəydilli, Ağahəsənli, Cığallı, Əlməhətdi (Alməmmədli), Turabxanlı, Hacı Baxşəlilər məhəllələrinin sakinləri qədimdə burada məskən salmış ulu babalarının ocağını sönməyə qoymayan, torpağını sevən insanlardır.



Qarabağlar orta əsrlərdə bir sıra görkəmli səyyah, tarixçi və coğrafiyaşünasların diqqətini cəlb etmişdir. Orta əsrlərin bir çox məşhur səyyahlarının əsərlərində şəhərin gözəl iqlimi, əhalisi, tarixi abidələri haqqında maraqlı məlumatlar vardır. Nizaməddin Şami, İbrahim Əfəndi Peçevi, Övliya Çələbi, F.Rəşidəddin, N.Xanıkov, Moryer, İ.Şopen, İ.Tavernye kimi alim və səyyahlar Qarabağlar haqqında çox qiymətli məlumatlar vermişlər. Tarixi vərəqlədikcə oxuyuruq ki, XVII əsrin tanınmış türk səyyahı Övliya Çələbi Azərbaycana birinci səfərində (1646-1647-ci illər) “Böyük Qarabağlar şəhərinin təsviri”nə geniş yer vermişdir: “Bu şəhərin binasını ilk dəfə Mənuçöhr qoymuşdur. Qədim şəhərdir; indi də Naxçıvan torpağında ayrıca sultanlıqdır. Qədim zamanlarda böyük şəhər imiş. 1012-ci ildə (1603-cü ildə) Üçüncü Məhəmməd xan zamanında Osmanlı əlində ikən Əcəm zəfər qazandı. 1045-ci il tarixdə (1635-ci il) Rəvan fatehi, zəmanənin Murad xanı Rəvan fəthindən sonra bu şəhərə gəlib burada dayandıqda qədim əlyazmalarda cənnət qədər abad olan şəhəri dərya misal qoşununun ixtiyarına verərək onu bilməzsə dağıdıb xarab etmişdir, xarabalıqları hələ də durmaqdadır”. Göründüyü kimi, Ö.Çələbi “Səyahətnamə” əsərində Qarabağları böyük bir şəhər kimi təsvir etmişdir. Onun məlumatına görə, XVII əsrdə Qarabağlarda, təqribən, 50 min adam yaşayırdı; 10 min ev, 70 məscid, 40 minarə, karvansara, hamam, bazar və sair var idi. Şəhərin ab-havasından, bağ-bağatından, meyvələrindən, xörəklərinin dadından Ö.Çələbi ürəkdolusu söhbət açır: “Allaha həmd olsun bu şəhərin ab-havasının lətafətindən əhvalımız da xoş olub atlara süvar olmaqla bəzi rəfiqlərimizlə şəhərə tamaşa etdik... Havasının lətafətindən xoşüzlü məhbub və məhbubələrə rast gəlirdik. Yeyəcək və içəcəklərinin, meyvələrinin bənzəri heç bir diyarda yoxdur. Qara Bağlar desək yerinə düşər. İşçiləri olduqca təmizdir. Zira cümləsi müsəlmandır”.

Bu kənd həm də Azərbaycanın mühüm ictimai-iqtisadi, siyasi mərkəzlərindən biri olub. Onun Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üzərində yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli inkişaf edib. Burada olan möhtəşəm memarlıq abidələri – türbə və minarələr XII-XIV əsrlərdə Qarabağların vaxtilə böyük şəhər olduğunu sübut edir. Tarixi mənbələrdən məlum olur ki, Qarabağların şəhər kimi formalaşması və inkişaf dövrü isə Hülakülər dövləti dövründə olub. Qarabağlar şəhəri XVI əsrdə dağıntılara məruz qalsa da, şəhər bölgə mərkəzi kimi statusunu itirməyib. Birinci Osmanlı idarəçiliyi dövründə (1587-1603) şəhər baxımsızlıq səbəbindən tənəzzülə uğrayıb və hətta 1590-cı il tarixli “İrəvan əyalətinin müfəssəl dəftəri”ndə kənd kimi qeyd olunub.

“Qarabağlar türbə kompleksi” adlı kitabda Qarabağlarla bağlı maraqlı faktlar qeyd olunub. Kitabda oxuyuruq: “Qarabağlar haqqında XV əsrin görkəmli salnaməçisi Nizaməddin Şami “Zəfərnamə” əsərində bəhs etmişdir. Nizaməddin Şami orta əsrlərin məşhur fatehi Əmir Teymurun səfərlərində onu müşayiət etmiş, tarixi hadisələrin canlı şahidi olmuşdu. Müəllif özünün “Zəfərnamə”sində Əmir Teymurun Hindistandan dönməsi bölməsində Teymurun Qarabağlarda müəyyən müddətdə qalmasını da təsvir edir.

*Kəngərlilərin davamçıları*

Xalqımız hər zaman qəhrəman oğulları, mübariz qızları ilə fəxr edib. Onlar Vətənimizin azadlığı, bütövlüyü uğrunda canından, sağlamlığından keçir, amma düşmənə bir qarış torpaq vermirlər. Qarabağlar kəndinin igid oğulları da, əcdadlarının yolunu davam etdirirlər. Onlar Vətənin müdafiəsində igidlik göstərib şəhadətə yüksəlir, qazi olurlar. Kəndin 13 şəhidininin Birinci və İkinci Qarabağ müharibələrində döyüş meydanında göstərdiyi şücaət dillərə dastan olub. Vətən savaşının qəhrəman şəhidlərindən olan Vüqar Əsgərov, qazi Təbriz Zeynalov da bu kəndin qəhrəmanlarının davamçılarındandır.

*Qədimliklə müasirliyin vəhdəti*

Bu gün Kəngərli rayonunun ən böyük yaşayış məntəqəsi olan Qarabağlara göstərilən böyük dövlət qayğısı kəndi şəhər mədəniyyətinə qovuşdurmuşdur. Hələ 2009-cu ildə burada inşa olunmuş kənd mərkəzi qarabağlılara bütün müasir xidmətlərin göstərilməsinə imkan yaradır. Həmin il öz müasir görkəminə qovuşmuş 522 yerlik 2 nömrəli və 2014-cü ildə əsaslı təmirdən sonra istifadəyə verilmiş 648 yerlik 1 nömrəli tam orta məktəblər, 2010-cu ildə istifadəyə verilmiş həkim ambulatoriyası kəndin simasına əsl şəhər yaraşığı verir. 2012-ci ildə istifadəyə verilmiş müasir Qıvraq-Qarabağlar-Çalxanqala-Təzəkənd dairəvi avtomobil yolu insanların rahatlığını təmin etmişdir. Belə bir rahat yol infrastrukturu təkcə 6 min nəfərdən artıq əhalisi olan Qarabağların deyil, ətraf kəndlərin də Naxçıvan şəhəri və rayon mərkəzi arasında rahat nəqliyyat marşrutlarının yaradılmasına imkan verir.

Qarabağlar kəndi tarixən öz təhsil ənənələriylə də seçilmişdir. Bu kənddən yüzlərlə maarif və mədəniyyət işçisi yetişmişdir. Ümumiyyətlə, kəndin yetirməsi olmuş 45-dən çox elm xadimi müxtəlif vəzifələrdə xalqımızın maariflənməsinə xidmət etmişdir.

Müasirləşmə yolunda mühüm işlər görülmüş Qarabağlarda sosial həyat öz axarı ilə davam edir. Kənddə əhaliyə rabitə, aptek xidmətləri göstərilməsi, enerji və təbii qaz infrastrukturunun tamamilə yenilənməsi əhalinin rifahına müsbət təsir edən amillərdəndir. Son illərdə kənddə ikimərtəbəli müasirtipli evlərin sayı artmaqda, hər il kənddə yeni evlərin tikintisi ilə bərabər əsaslı təmir işləri də vüsət almaqdadır. Qarabağların yerli xammalı olan üzlük daş plitələr və yüksəkkeyfiyyətli Naxçıvan sementi buna imkan yaradır. Kənddə sayı 15-dən çox olan butipli evin buraya turist kimi gələn qonaqlara da kirayə verilə bilməsi mümkündür.

Kənd ərazisindəki 40-dan artıq kəhriz, 18 bulaq və çox sayda artezian quyusu burada əkinlərin suvarılması və əhalinin içməli su ilə təmin olunmasında mühüm rol oynayır. Qarabağlarda su deyərkən Asnı bulağının adı ilk olaraq çəkilir. Bu kəndin camaatı üçün “Asnı” adı həm də müqəddəs olan bir ziyarətgahın adıdır.

*Göyçədən Kəngərliyə gələn ərmağan*

Bu pirlə bağlı əhali arasında əfsanələr söylənilir. Onların birində deyilir ki, Asnı dağındakı bulağın suyu Göyçə gölünün suları ilə əlaqədardır. Keçmiş vaxtlarda uzaq Göyçə mahalından gəlmiş bir tacir karvan ilə daşduz aparmaq üçün Qalacıq şəhərindəki (indiki Qarabağlar kəndi) bazarda dayanmalı olur. O, bir şəxsin əlində özünün əvvəllər itirdiyi naxışlı əlağacını görərək tanıyır və sevincək on il əvvəl başına gəlmiş bir hadisəni xatırlayır. Belə ki, o, bir zamanlar Göyçə gölündən qayıqla keçən zaman qəflətən yaranan tufan nəticəsində qayıq çevrilir. Tacir sudan çətinliklə üzüb çıxır.

Həmin hadisədən sonra suda batan mallarından çox, qaraağacdan yonulmuş naxışlı əlağacının itirməsinə heyifsilənir. Tacir əlağacının özününkü olduğunu sübut edib qalacıqlı şəxsdən almaq üçün yivli baş hissəsini burub açır və içərisində gizlətdiyi qızıl sikkələri yerə tökür. Camaat təəccüblənərək tacirin əlağacı ilə qızıllarını özünə qaytarır. Tacir isə halallıq kimi qızılların yarısını itmiş əlağacını tapan şəxsə verərək onu haradan tapdığını soruşur. Ağacı tapan şəxs Allaha şükür edərək əlağacını təpədəki Asnı bulağından tapdığını söyləyir. Həmin əhvalatı eşidən qalacıqlılar (qarabağlılar) Asnı bulağını Allahın möcüzəsi kimi müqəddəs bilib, oranı ziyarətgaha çevirirlər. Tacir isə qalan qızılları xərcləyərək Asnı bulağında min baş qurbanlıq quzu kəsdirməklə əhaliyə ehsan verir.

Bu gün qədim Qarabağlar öz inkişafının yeni mərhələsindədir. Kənd sakinləri bizimlə söhbət zamanı Qarabağlara, gənc nəslin təhsilinə, Vətənin müdafiəsində canından keçmiş şəhidlərin ailələrinə, kəndin zəhmətkeş insanlarına göstərilən diqqətə, qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildirirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**



# Söykənmişik qocaman bir çinara

## və ya xan çinarın "söhbəti..."



***Günlərdən şənbədir… İş həftəsinin yekunlaşmasına baxmayaraq, media kollektivi olaraq yolumuz Ordubadadır. Azərbaycanın incisi sayılan Ordubada… Bir gün öncədən hazırlaşmışıq bu səfərə. "Şərq qapısı" qəzetinin jurnalistləri ilə birgə muxtar respublikamızda fəaliyyət göstərən media orqanlarının bir qrup əməkdaşı da turda iştirak edir. Səfərin maraqlı və yaddaqalan olacağı günün ilk dəqiqələrindən bəllidir. Çünki hər kəs böyük şövqlə, işin məsuliyyətini dərk edərək təyin olunan yerdə, təyin olunan saatda hazırdır. İşimiz həm də ona görə məsuliyyətlidir ki, bu səfərlə Ordubad şəhərinin minillik tarixinə qayıdacaq, əsrlərin yadigarı olan tarixi-memarlıq abidələrini seyr edəcək, hər birimiz püşkatma ilə seçdiyimiz müəyyən bir mövzunun işıqlandırılmasında gücümüzü, necə deyərlər, əsl jurnalist məharətimizi göstərməyə çalışacağıq...***

Bizi Ordubada aparan avtomobillər şəhərimizin gözoxşayan mənzərəsini geridə qoyur. Yol boyunca uzanan ağaclar, kənd evlərinin həyətlərində boyverən ot tayaları, uzaqdan tamaşa etdiyimiz vüqarlı dağlar və daha nələr-nələr diqqətimizi özünə cəlb edir. Bunların hər biri diyarımızın ecazkar mənzərələri, insanı valeh edən gözəlliyidir…

Culfa rayonu ərazisindən başlayaraq havanın temperaturu bir xeyli dəyişir. Yurdumuzun bu guşəsi xan Arazın sahilində yerləşdiyi üçün lap qədimdən küləkli və sərin olub. Bu rayon həm də bir neçə tarixi filmimizin çəkilişinə qucaq açıb. Magistral yolun sol tərəfində uzanan alçaq təpəliklərə baxıb həmkarlarımla "Babək" filminin bəzi hissələrinin də burada çəkildiyi barədə söhbətə girişirik. Elə bu mövzuda söhbət edə-edə yol bizi Ordubada yaxınlaşdırmaqdadır…

Budur, bu da Ordubad şəhəri... Bu qədim məkana ayaq basanda, onun saf, təmiz havasını ciyərlərinə çəkəndə, bu yerlərə ilk dəfə gəlmiş olsan belə şəhərin gözəlliyi, insanlarının səmimiyyəti, qonaqpərvərliyi, bir sözlə, Ordubada xas olan hər şeyi insan rahat şəkildə hiss edir. Qədim darvazalar, yaşı yüzü ötmüş hündür çinar ağacları, qədim tikililər... Bunlar qədimlik və müasirliyin çiyin-çiyinə addımladığı Ordubad şəhərinin dəyişilməyən görkəmidir.

…Məşhur Cümə məscidinin, tarixi mənbələrə istinadən desək, Şah Abbas məscidinin arxasındakı Çay evində Ordubadın adla deyilən bu dadlı nemətinə qonaq oluruq. Jurnalistlərlə birgə səfərimizin məqsədini müzakirə edir, nəyi necə ictimaiyyətə təqdim edəcəyimiz barəsində söhbət aparırıq… Təqribən, yarımsaatlıq söhbətin ardından həmkarlarla qədim Qeysəriyyə binasının yanında cəm olub mövzu seçir və Ordubad şəhərinin dörd bir tərəfinə yola düşürük... Çox maraqlı, bir o qədər də xatirə dolu haldır həmkarların doğru, operativ informasiya uğrunda, necə deyərlər, mübarizə aparması, hər küçədə bir jurnalistin xəbər toplaması, müsahibə alması, ordubadlılarla söhbət etməsi… Kimisi Ordubadın qədim məhəllələrindən, kimisi də tariximizin saxlanc yeri olan muzeylərdən reportaj hazırlamağa başlayır. Kimisi büllur kimi saf, təmiz suyu ilə insanlara, təbiətə həyat verən kəhrizlərin sorağına düşərkən, kimisi də qədim məscidlərdən, mədrəsələrdən məlumatlar toplayır. Elə mənim Ordubadın yaşı yüzü ötən çinarları ilə görüşüm də bu minvalla başladı; bəxtimə "Çinar" mövzusu düşdüyü andan etibarən…

Ordubad rayonunda yaşı bilinməyən çinar ağacları çoxdur. Rayon ərazisindəki ən qədim çinar isə şəhərin Sərşəhər məhəlləsində, qədim Sərşəhər məscidinin qarşısında yerləşən qoca çinar ağacıdır. Ordubadlıların "xan çinar" adlandırdığı çinar ağacı barəsində olan rəvayətlərdə deyilir ki, böyük şair, görkəmli alim-filosof Nizami Gəncəvi bu çinarın kölgəsində dincəlib, yaxınlığında qaynayan saf, təmiz kəhrizin suyundan içib və bu məkandan yoluna davam edib. Bu kimi tarixi faktlara nəzər yetirəndə çinarın yaşının minə çatdığını deyə bilərik.

Xan çinarın kölgəsində dayanıb onun əzəmətinə tamaşa etmək, bu yerlərin qədim sakini olan elimizin min yaşlı yurddaşının "söz-söhbətinə" qulaq verməK çox gözəl hissdir. Gövdəsinə söykənib dörd bir tərəfə uzanmış qol-budaqlarına baxdıqca sanki tarixin karvanında bu gündən gələcəyə yol alıb gedirsən. Eşidirsən budaqların bir-biri ilə olan o şirin söhbətini; xan çinarın onlara, sənə, mənə, bizə danışdığı mətləbləri. Onun söhbəti həm də ona görə şirindir, əvəzsizdir ki, hələ bu yerlərdə indiki insanlar olmayanda xan çinarın kökləri çoxdan bu torpağa tutunmuşdu. Bu yerlərin insanları eşitdikləri hadisələri rəvayətlər, hekayələr, nağıllar kimi nəql edəndə qocaman çinar onları görmüşdü, yaşamışdı, hər anına şahid olmuşdu minillik tarixin…

…Danışır xan çinar; danışır bizə Ordubadın şərəfli tarixindən, bu diyarda böyüyüb boya-başa çatan dahilərimizin, Vətən mücahidlərinin keşməkeşli həyatından; mətbuat üçün qələmini silaha çevirən M.S. Ordubadinin gözlərini bürüyən "Dumanlı Təbriz"dən, "Qılınc və qələm"in bitib-tükənməyən mücadiləsindən, mübarizəsindən... Danışır xan çinar; danışır bizə Yusif Məmmədəliyevin əvəzsiz, fədakar əməyindən, elm yolunda qəlbini şam kimi əridən Məhəmməd Tağı Sidqinin ardıcıllarından, kölgəsində dinclik tapanların söylədiyi o şirin, əvəzsiz rəvayətlərdən, hekayələrdən ürəkdolusu danışır. O danışır, biz isə dinləyirik. Gəlin siz də dinləyin Ordubadın ən azı özü qədər qədim, keçmiş və gələcəyə yolyoldaşlığı edən elimizin min yaşlı yurddaşının – xan çinarın söhbətini…

O danışdıqca sanki Nuhun gəmisinə əyləşib seyrinə çıxırsan bu qədim diyarın. Hər addımında bir tarix, hər tarixində bir əzəmət, qədimlik, ehtişam yatan Ordubadı onun min yaşlı sakinindən dinləyirsən. Söhbətinə qulaq asdıqca sanki bu yurdun gözəlliyinin bir daha fərqinə varırsan. Gəmiqayada daşlaşmış həqiqətləri, Xaraba Gilanın bağrından qopan səsləri eşidirsən, bir daha şahid olursan qədim şəhərin qədimliyinə…

Danışır xan çinar; danışır yurdumuzun başından sonuna qədər birbirinə qol-qanad vermiş Zəngəzurun, Dərələyəzin keçilməz hesab etdiyimiz düşmən çəpərindən, Qapıcıq dağının föվqündən boylanan Günəşin işvə-nazından, bu dağların başında özünə məskən qurmuş el atası Dədə Qorqudun ağarmış saçlarını xatırladan qarından, boranından. Danışır ruzi-bərəkət ətri verən çöllərin qışın oğlan çağında sinəsində şıltaqlıq edən küləyindən, çiskinindən… Danışdıqca sanki əllərimizdən tutub Vətənin şanlı tarixini gəzdirir. Budaqları pərçimlənib bir istiqamətə bənd olur; uzaqdan görünən Əlincəqalanın yollarına işarə edir. Sanki bizi o tarixə aparmaq istəyir. Aparır da…

Danışır xan çinar; danışır Topal Teymurun Əlincə qalasına olan qara sevdasından, bu Vətəndə yaşayıb-yaratmış Nəiminin faciəli qətlindən, İmadəddin Nəsiminin dünyaya səs salmış təlimindən, hürufilərin canı, qanı bahasına qoruduğu o böyük ideyadan – Allahın bu dünyanın əşrəfi sayılan insanın üz cizgilərindəki səltənətindən ürəkdolusu danışır. Hər sözündə, söhbətində illərdir, ürəyində daşıdığı kədərin, qəmin ağrılı-acılı xatirələri hiss olunur. Axı necə hiss olunmasın? Bir halda ki, bu diyarda yaşayan, onun şahid olduqlarını görən, duyan kim var ondan savayı. Xan çinardan başqa kim görüb Osmanlı-Qacarlar müharibəsinin dəhşətini, sözügedən cəngin Ordubad şəhərinə vurduğu zərbəni? Kim görüb Murad Mirzə və Əlvənd Mirzənin Şərur düzündəki qanlı döyüşünü, bu yerlərə hakim olan Qaraqoyunlu, Ağqoyunlu sülaləsinin, Səfəvi hakimiyyətinin işıqlı günlərdən ayrılıb addım-addım tənəzzülə qovuşmasını…

Danışır xan çinar; danışır yaxın Şərqin cənnəti, Qafqazın dilbər guşəsi, incilərin incisi, ellərin sevinci olan Ordubad şəhərinin gülərüz, mehriban, səmimi insanlarından. Söhbətində doğma ordubadlıların nəfəsinin təravəti, gülərüzlülükləri, söz-söhbətlərinin şirinliyi hiss olunur… O danışdıqca sanki Ordubadı qarış-qarış gəzib hər kəndin, qəsəbənin, məhəllənin, hər evin, ocağın qonağı olur, bu qədim məmləkətin ağsaqqal babalarından, ağbirçək nənələrindən xeyir-dua alırıq. Bu yerlərin insanlarının dilində əzbər olan ifadələri xatırladır bizə qocaman çinar. Söyləyir ki, ordubadlılar üçün qonaq Tanrı nemətidir, gərək onu böyük hörmətlə, ehtiramla qarşılayasan, halal süfrədə olan bütün naz-nemətləri qonaq süfrəsinə düzəsən, eyni qayda ilə də qonağı yola salasan. Danışır xan çinar; danışır bizə Ordubadın dadlı-tamlı, yediyin zaman damaqlarda dad buraxan əvəzsiz təamlarından, bu yerin məşhur, ləzzətli neməti olan qayğanağından, qaysavasından, görünüşü ilə insana gəl-gəl edən sucuğundan. Söhbət açır bizə Ordubad limonunun qəlblərə təravət verən xoş ətrindən, əriyin, armudun gözoxşayan, gümrah görünüşündən, dağların bu yerlərin insanına şəfa mənbəyi kimi bəxş etdiyi kəklikotunun, solmazçiçəyin, yarpızın, nanənin dillər əzbəri olan dad-tamından…

…Zamanın sorağı ilə bu diyarı qarış-qarış gəzdikcə Ordubadın yaşı minilliklərə çatan tarixində daha çox mətləblər duyursan, daha çox həqiqətlərin fərqinə varırsan. Bu yurdun yalnız xan çinarı yox, elə hər daşı, qayası fərqli tarixlərdən, eşidəndə yaddaşımızda iz salacaq hadisələrdən xəbər verir bizə… Qədim Sərşəhər məscidinin söhbətinə qulaq versən, bu torpaqda İslam mədəniyyətinin hakimliyindən, ordubadlıların dinə olan sonsuz etiqadından, elmə, maarifə olan sonsuz bağlılığından danışacaq, qədim Əxtər məktəbi bu irfan ocağında elmə, təhsilə yiyələnmiş ziya sahiblərinin nurlu sabahlarından, Azərbaycanda baş verən Cəlairilər hərəkatının məramından, Şah Abbasa qarşı baş verən qanlı üsyanları yatırarkən ordubadlıların necə böyük qəhrəmanlıq, igidlik nümayiş etdirdiyindən söhbət açacaq bizə. Daha nələr-nələr bu qədim yurdun tarixindən soraq verəcək, nə sirlər, söhbətlər aydınlanacaq onların kəlmələrində… Biz Ordubad şəhərinin şirin nağılını xan çinardan dinlədik, xan çinara söykənib çıxdıq bu diyarın seyrinə. Gəlin siz də dinləyin elimizin min yaşlı yurddaşının – xan çinarın "söhbəti"ni…

✍ Məcid RƏŞADƏTOĞLU

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi
### 2024-cü il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul elan edir

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | |
|---|---|---|---|---|---|---|
| | | Doktorant hazırlığı üzrə qəbul planı | | | | |
| | | cəmi | o cümlədən: | | | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | |
| | | | əyani | qiyabi | əyani | qiyabi |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə | | | | | | |
| 5503.02 | Vətən tarixi | 2 | | 1 | | 1 |
| 5505.02 | Arxeologiya | 2 | | 2 | | |
| İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə | | | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 3 | | 2 | | 1 |
| 5719.01 | Folklorşünaslıq | 1 | | 1 | | |
| 5718.01 | Dünya ədəbiyyatı | 1 | | | | 1 |
| Cəmi: | | 10 | | 7 | | 3 |

**Qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:**

*– müəssisə rəhbərinin adına ərizə;*

*– kadrların şəxsi-qeydiyyat vərəqi;*

*– tərcümeyi-hal;*

*– 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*

*– iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*

*– iş yerindən xasiyyətnamə;*

*– çap olunmuş elmi işlərin siyahısı və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat;*

*– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*

*– şəxsiyyəti təsdiq edən sənədin surəti.*

*– xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, TestDaf, DALF əgər varsa) və ya xarici dildən keçid balını toplayanlara Dövlət İmtahan Mərkəzi tərəfindən verilən təsdiqedici sənəd;*

Fəlsəfə dokoru hazırlığı üzrə doktoranturaya sənədlər 16 aprel-15 may 2024-cü il tarixlərdə hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat $9^{00}$-dan $18^{00}$-dək AMEA Naxçıvan Bölməsinin əsas binasında, Elm və təhsil şöbəsində qəbul edilir.

***Qeyd:*** Doktoranturaya sənəd qəbulu, eyni zamanda "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada aparılacaq. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin *portal.edu.az* platformasında qeydiyyatdan keçməlidirlər. Elektron qaydada sənəd qəbulu 16 aprel-15 may 2024-cü il tarixlərdə həyata keçiriləcək. Portal ilə bağlı əlavə məlumat almaq üçün AMEA Naxçıvan Bölməsinin Elm və təhsil şöbəsinə müraciət etmək olar:

**Ünvan: Heydər Əliyev pr. 76**
**Əlaqə telefonu: 545-34-96**
**e-mail: gulvira_abbasova@mail.ru**

## "Muxtariyyətin 100 ili: keçmişdən bu günə və sabaha" mövzusunda beynəlxalq elmi konfrans



AMEA Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə 6-8 iyun 2024-cü il tarixdə Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr edilmiş ***"Muxtariyyətin 100 ili: keçmişdən bu günə və sabaha"*** mövzusunda üzüzə və onlayn formatda beynəlxalq elmi konfrans keçiriləcək.

Konfransda aşağıdakı istiqamətlər üzrə müzakirələr aparılacaq:

*• 1917-ci ilin Rusiya hadisələri və bunun Cənubi Qafqaza təsiri*

*• Türk hərbi heyətinin Naxçıvana gəlməsi, fəaliyyəti və türk diplomatlarının rolu*

*• Araz-Türk Cümhuriyyəti, onun Azərbaycan Xalq Cümhuriyyəti və Cənub-Qərbi Qafqaz Respublikası ilə əlaqələri*

*• İngilis və ABŞ hərbi qüvvələrinin Naxçıvanla bağlı siyasətləri*

*• Azərbaycan Xalq Cümhuriyyəti, Sovet Azərbaycanı və Naxçıvan*

*• Ermənilərin Naxçıvan diyarını tutmaq cəhdləri və törətdiyi soyqırımlar*

*• Naxçıvanda hərbi-siyasi vəziyyət və diyarın sovetləşməsi*

*• Sovet Rusiyasının Naxçıvan diyarı ilə bağlı ikili siyasəti*

*• Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvan*

*• Naxçıvan tarixi, arxeologiyası və etnoqrafiyası*

*• Nəriman Nərimanov, Behbud ağa Şahtaxtinski, Heydər Əliyev və Naxçıvan tarixi məsələləri*

*• Naxçıvanın inzibati idarəçilik sistemində dəyişikliklər*

*• Naxçıvan Muxtar Respublikasının təşkili*

*• Ermənilərin Moskva və Qars müqavilələrini ləğv etmək cəhdləri*

*• Naxçıvan Muxtar Respublikasının siyasi-hüquqi statusu*

*• Naxçıvanda ictimai-siyasi proseslər*

*• Naxçıvan MSSR-in inkişaf tarixi*

*• Naxçıvan Muxtar Respublikası müstəqillik illərində*

*• Muxtariyyət illərində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı*

*• Naxçıvan Muxtar Respublikasında təhsil, elm və mədəniyyətin inkişafı*

*• Naxçıvan Muxtar Respublikasının elmi-ədəbi və mədəni mühiti*

*• Naxçıvan Muxtar Respublikasının təşkili və inkişafında xidmətləri olan görkəmli şəxsiyyətlər (tərcümeyi-hal istisna olmaqla)*

***Xülasə və məqalənin yazı qaydaları:***

• Xülasə 250-300 söz, 10 pt şrift (Times New Roman), 1 interval ara ilə Azərbaycan, ingilis və rus dillərində göndərilməlidir. Xülasənin sonunda 10 sözü keçməməklə açar sözlər qeyd olunmalıdır;

• Məqalənin tam mətni 7-10 səhifə, 12 pt şriftlə Azərbaycan, türk, ingilis yaxud rus dillərində göndərilməlidir.

***Mühüm tarixlər:***

• Konfransda iştirak etmək istəyənlər məqalələrini 10 may 2024-cü il tarixədək *ameanaxcivanbolmesi@gmail.com* e-poçt ünvanına göndərə bilərlər.

• Məqalələrin qəbul edilib-edilməməsi ilə bağlı məlumat 20 may 2024-cü il tarixdə təqdim olunan e-poçt ünvanı vasitəsilə veriləcək.

***Qeyd:*** Qaydalara uyğun tərtib olunmayan, həmçinin konfransda məruzə etməyən müəlliflərin məruzə mətnləri konfrans materialları toplusuna daxil edilməyəcək.

Konfransın qaydaları, mövzu başlıqları və istiqamətləri ilə daha ətraflı AMEA Naxçıvan Bölməsinin *www.ameanb.az* saytında tanış olmaq mümkündür.

***Ünvan: AZ7000, Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76***
***Telefon: (+99436) 544-09-64 (+99436) 545-67-45***
***Faks: (+99436) 545-46-22***
***E-poçt: ameanaxcivanbolmesi@gmail.com***

## Elan

Naxçıvan Dövlət Universiteti 2024-2025-ci tədris ili üçün fəlsəfə və elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul və dissertanturaya təhkim olunma üçün sənəd qəbulu elan edir. Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilir. (*Portal.edu.az* vasitəsilə 16.04.2024-15.05.2024-cü il tarixlərdə müraciətlər qəbul olunacaq). Doktoranturaya qəbul olunmaq istəyən şəxs sənədlərini portala yükləməlidir.

**Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

*• ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);*

*• kadrların şəxsi-qeydiyyat vərəqi;*

*• tərcümeyi-hal;*

*• 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*

*• şəxsiyyəti təsdiq edən sənədin surəti;*

*• iş yerindən xasiyyətnamə;*

*• iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*

*• çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*

*• ali təhsil müəssisəsini bitirmək haqqında diplomların müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə, təhsilin magistratura pilləsini və yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis) tamamlanmadığı halda təhsi pilləsinin son ilində təhsil alındığına dair arayış (yalnız ölkə universitetlərində təhsilalanlar üçün);*

*• fəlsəfə doktoru (elmlər namizədi) diplomunun notarial qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə sənəd verənlər üçün).*

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| Naxçıvan Dövlət Universiteti | | | | | | | | | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | | 1 | | | | | |
| 2306.01 | Üzvi kimya | 1 | | 1 | | | | | |
| 2417.01 | Botanika | 1 | | 1 | | | | | |
| 3220.01 | Pediatriya | 1 | | 1 | | | | | |
| 3226.01 | Stomatologiya | 1 | | 1 | | | | | |
| 3338.01 | Sistemli analiz və idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | | | | 1 | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | | | | 1 | | | | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | 1 | | | | | | |
| 5312.01 | Sahə iqtisadiyyatı | | | | 1 | | | | |
| 5310.01 | Dünya iqtisadiyyatı | 1 | 1 | | | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 | | 1 | | 1 | |
| 5706.01 | Azərbaycan dili | 1 | 1 | | | | | | |
| 5708.01 | German dilləri | 1 | 1 | | | | | | |
| 5709.01 | Roman dilləri | 1 | | 1 | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | | | | | |
| 5720.01 | Jurnalistika | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | 1 | 1 | | | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 1 | | 1 | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | | | | | |
| 6213.01 | Musiqi sənəti | 1 | | 1 | | | | | |
| 6215.01 | Təsviri sənət | 1 | | 1 | | | | | |
| | Cəmi: | 19 | 5 | 14 | 3 | 1 | | 1 | |

**Əlavə məlumat üçün həftəiçi saat $9^{00}$-$18^{00}$ arasında əlaqə saxlaya bilərsiniz: (036) 544-08-61, daxili nömrə 3302**

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi
### *Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda direktor vəzifəsini tutmaq üçün müsabiqə elan edir*

**Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu**

Direktor – 1 ştat vahidi

Müsabiqədə qeyd edilən yerə uyğun olaraq AMEA-nın həqiqi və müxbir üzvləri, elmlər doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

***Az 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76***
***AMEA Naxçıvan Bölməsi İnsan resursları və sənədlərlə iş şöbəsi***
***Telefon: 550-21-52; 544-09-64***

## Elanlar

"Əbrəqunus Şərab" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə! 07.05.2024-cü il tarixdə saat $11^{00}$-da "Əbrəqunus Şərab" Açıq Səhmdar Cəmiyyətinin Culfa rayon Əbrəqunus kəndində yerləşən inzibati binasında səhmdarların yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1.Cəmiyyətin 2023-cü ilədək fəaliyyəti.*

*2. Digər məsələlər.*

***

Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti bildirir ki, 24.04.2024-cü il tarixdə cəmiyyət təsisçiləri ilə Maliyyə Hesabatlarının açıqlanması və dividentlərin elan edilməsi ilə bağlı iclas keçiriləcəkdir.

### *İtmişdir*

Quliyev Cabbar Orucəli oğlunun adına Naxçıvan şəhəri Qaraxanbəyli kəndində 6-cı küçə 20-də yerləşən AA-005451 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Xanlıqlar kəndində yaşamış Rəhimova Xədicə Elyas qızının adına verilmiş $274^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Kərimova Bəsti Allahverdi qızının adına olan JN-$228^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babayev Rauf Tofiq oğlunun adına olan Naxçıvan şəhərinin Afiyəddin Cəlilov küçəsi, bina 17, mənzil 2-yə məxsus 4646 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Üstüpü kəndində yaşamış Fərzəliyeva Qumru Əhməd qızının adına olan JN-$40^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Aşağı Daşarx kənd sakini Mahmudov Əmrah Cəbrayıl oğlunun adına olan JN-$278^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Mustafa Nurettin Aymelek oğlunun adına olan U29577023 seriya nömrəli vətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Yaycı kənd sakini Abdinov Kazım Hüseyn oğlunun adına olan JN-$1051^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində yaşamış Məmmədov İlqar Sərdar oğlunun adına olan JN-$1452^{B}$ nömrəli "Torpağın mülkiyyət hüququna dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 44, mənzil 7-də yaşayan Məmmədova Hökumə Bayram qızının adına olan 7748 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Şıxmahmud kəndində yaşayan Məmmədov İslam İsmayıl oğlunun adına olan JN-$101^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qıvraq qəsəbəsində Seyidov Mirhəmid Mir Qasım oğlunun adına olan AA-002673 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Şıxmahmud kəndində yaşamış Şahbazova Firuzə Ağarza qızının adına olan $161^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Bayramov Elman Məhəmmədəli oğlunun adına olan 0017159 nömrəli çıxarış, 103013002498-10301 reyestr nömrəli, 1210003459 qeydiyyat nömrəli, 12.07.2010-cu il tarixli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Yengicə kəndində yaşamış Bağırov Sadıq Rza oğlunun adına olan JN-$170^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Novruzova Zərifə Vəliyəddin qızının adına olan JN-$160^{A}$ nömrəli, 10312048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 6-cı məhəllə, döngə 6, ev 9 ünvanında yaşayan Rzayeva Gülşən İsmayıl qızının adına verilmiş 06.03.2014-cü il tarixli MH-0035066 nömrəli, 104013007963 reyestr nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı və 05.03.2014-cü il tarixli AA-008776 qeydiyyat nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Səməd Vurğun küçəsi 118 ünvanında yaşamış Rəhimov Xəlil Baba oğlunun adına olan 1260 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor:**
**SARA ƏZİMOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Fariz Əhmədov**
*Dizayner:* **Tacirə Vəliyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 116**